QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 215 (5935) **21 noyabr** 2019-cu il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


# Xalq öz Prezidentinin uğurlu fəaliyyətini dəstəkləyir!

*Sosial Tədqiqatlar Mərkəzi Azərbaycan Prezidentinin fəaliyyəti barədə ictimai rəyi araşdırıb*

Səh 2



4

Yeni Azərbaycan Partiyası niyə və necə yarandı?



6

Yeni Azərbaycan Partiyası Azərbaycanın müasir tarixində böyük fenomendir



9

Rasim Quliyev: “YAP tarixi zərurət, sosial sifariş əsasında yaranıb”



# Xalq öz Prezidentinin uğurlu fəaliyyətini dəstəkləyir!

## *Sosial Tədqiqatlar Mərkəzi Azərbaycan Prezidentinin fəaliyyəti barədə ictimai rəyi araşdırıb*




***Sosial Tədqiqatlar Mərkəzi (STM) nizamnaməsinə uyğun ardıcıl olaraq müxtəlif mövzularda ictimai rəyin öyrənilməsi məqsədilə sorğular hazırlayır, tədqiqatlar həyata keçirir. STM həm də beynəlxalq beyin mərkəzlərinin dünyada geniş yayılmış mövcud ənənələrindən və iş praktikasından, tətbiqlərindən faydalanaraq hakimiyyət institutları ilə bağlı ictimaiyyətin düşüncəsini öyrənir.***

Mərkəzdən AZƏRTAC-a bildirilib ki, məhz bu baxımdan dövlət və vətəndaş arasında sağlam, etibarlı və dürüst əlaqələrin formalaşması məramından irəli gələrək yaradılan STM məqsədinə uyğun olaraq ictimaiyyətin hakimiyyət institutlarına münasibətini vaxtaşırı öyrənir və eyni zamanda, ölkə rəhbərinin aylıq fəaliyyəti barədə ictimai düşüncənin monitorinqini də aparır.

Sosial Tədqiqatlar Mərkəzi "İnam indeksi" jurnalının oktyabr buraxılışında sözügedən məsələləri əhatə edən "Prezidentin fəaliyyəti ictimai rəydə" hesabatını dərc edib. Hesabat hazırlanarkən həyata keçirilən sorğu üçün areal Azərbaycanın iqtisadi rayonları üzrə müəyyənləşdirilib.

Bölgələrdə yerləşən 14 "ASAN xidmət" mərkəzində sorğu metodologiyası icra edilib. On dörd regional xidmət mərkəzi bütün ətraf rayonların əhalisini də əhatə edib.

İctimai rəy sorğusunda ümumilikdə 1316 respondent iştirak edib. Onların seçimi təsadüfi qaydada aparılmaqla yanaşı, xidmət mərkəzlərindən istifadə edən hər ikinci şəxs sorğuya cəlb olunub. Bu metodla həm reprezentativlik təmin edilib, həm də əhalinin bütün sosial-demoqrafik qrupları əhatə edilib və xəta əmsalı statistik olaraq üç faizə bərabərdir.

Sorğunun aparılmasında "üzüzə" metodu tətbiq olunub və nəticələr "SurveyToGo" proqramında emal edilib. Sahə işi cari il oktyabrın 29-dan noyabrın 5-dək davam edib. Sorğuların nəticəsi SPSS (Sosial Elmlər üzrə Statistik Proqram Paketi) proqramı vasitəsilə təhlil edilib. Təsvir analizləri ilə yanaşı, dəyişənlər arasında korrelyasiyalar da müəyyənləşdirilib. Anket 13 əsas, 5 demoqrafik sualdan ibarət olub və 3 əsas istiqamətdə aparılıb:

Prezidentin beynəlxalq arenada Ermənistanın işğalçı mövqeyi və Dağlıq Qarabağ problemi barədə çıxışları; Oktyabr ayında imzalanan sərəncamlar əsasında baş vermiş kadr dəyişiklikləri və struktur islahatları; Prezidentin fəaliyyətinin müxtəlif istiqamətlər üzrə dəyərləndirilməsi.

Sorğunun demoqrafik göstəricilərinə görə, 1316 respondentin 67,6 faizi kişi, 32,4 faizi qadındır. Əsas yaş qrupu 26-35, yəni, 34,3 faizdir. Təhsil səviyyəsinə görə tam orta təhsillilər üstünlük təşkil edib ki, bu da 45,1 faizdir.

Sosial Tədqiqatlar Mərkəzi tərəfindən aparılan Azərbaycan Respublikası Prezidentinin fəaliyyəti haqqında ictimai rəyin aylıq monitorinqinin nəticələrinə görə, 2019-cu ilin oktyabr ayı ərzində dövlət başçısının reytinqində yüksəlmə müşahidə olunub.

Mərkəz tərəfindən keçirilmiş sorğunun nəticələri göstərir ki, Prezident İlham Əliyevin beynəlxalq və daxili müstəvidə fəaliyyəti əhali tərəfindən milli maraqların qorunması, ümummilli rifahın təmin olunması baxımından olduqca təsirli və əhəmiyyətli hesab edilir. Prezidentin oktyabr ayındakı fəaliyyəti onun ictimai rəydəki pozitiv imicini daha da gücləndirib. Ümumilikdə, vətəndaşların 77,5 faizi ölkə Prezidentinə inam və etimadının daha da artdığını, 18,1 faiz respondent isə həmişəki sabit inam və etibarının qorunub saxlandığını bildirib.

Prezidentin oktyabrın 3-də "Valday" Diskussiya Klubunun plenar iclasındakı çıxışı zamanı "Qarabağ Azərbaycandır və nida işarəsi" deməsi əhalidə vətənpərvərlik hissini gücləndirib, dövlətə olan inam və etibarı artırıb. Bu, rəyi soruşulanların 85,8 faizinin fikridir. 76,9 faiz isə hesab edir ki, Prezidentin "Valday" Diskussiya Klubunun plenar iclasındakı çıxışı Ermənistanın beynəlxalq müstəvidə mövqelərinin zəiflədilməsi baxımından təsirli olub. Ümumiyyətlə, respondentlərin 84, 9 faizi Prezidentin "Valday" Diskussiya Klubunun plenar iclasındakı çıxışının əhəmiyyətini yüksək qiymətləndirib.

Prezidentin oktyabrın 11-də Aşqabadda MDB Dövlət Başçıları Şurasının Sammitindəki çıxışı rəyi soruşulanların 85 faizi tərəfindən rəğbətlə qarşılanıb. Azərbaycan Prezidentinin Ermənistanı tutarlı arqumentlərlə faşizmi qəhrəmanlaşdırmaqda ittiham etməsi və qarşı tərəfin mahiyyətsiz cavabı göstərdi ki, Prezident İlham Əliyev hücum diplomatiyasını uğurla davam etdirir. Rəyi soruşulan hər beş respondentdən dördünün fikrincə, Prezident İlham Əliyevin Aşqabad Sammitindəki çıxışı faşizm ideyalarını dəstəkləyən Ermənistanın ifşası istiqamətində tutarlı addım olmuşdur. 80,1 faiz bu çıxışın münaqişənin tənzimlənməsi istiqamətində də təsirli olacağı qənaətindədir.

Respondentlərin 80,9 faizinin rəyinə görə, Prezidentin oktyabrın 15-də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşündəki və oktyabrın 25-26-da Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşündəki çıxışları da Azərbaycanın beynəlxalq imicinin möhkəmləndirilməsi, münaqişə vəziyyəti ilə bağlı həqiqətlərin - Azərbaycanın haqlı mövqeyinin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması baxımından çox əhəmiyyətlidir.

Prezidentin oktyabr ayında həyata keçirdiyi struktur və kadr islahatlarından respondentlərin gözləntiləri kifayət qədər böyükdür. Sorğunun nəticələri dövlət başçısı tərəfindən həyata keçirilən islahatlara əhalinin inamının ən yüksək səviyyədə olduğunu göstərdi. Ümumilikdə, respondentlərin 87,6 faizi Prezidentin həyata keçirdiyi islahatları dəstəkləyir, onu əhəmiyyətli hesab edir.

Prezidentin oktyabr ayındakı fəaliyyətinin ən yüksək qiymətləndirildiyi sahələrdən biri də ordu quruculuğudur. Belə ki, rəyi soruşulanların 92,7 faizi Prezidentin ordunun və bütövlükdə Silahlı Qüvvələrin formalaşdırılması sahəsində uğurlu fəaliyyətini qeyd edib. Onun ardınca 92,4 faiz respondent isə dövlət başçısının xarici siyasət fəaliyyətini uğurlu hesab edir.

Oktyabr ayında keçirilən rəy sorğusu göstərdi ki, Prezidentin kadr islahatlarına ictimai dəstək getdikcə daha da artır. Belə ki, cari ilin iyun ayında bu dəstək 74 faiz təşkil etdiyi halda, oktyabr ayında 86,5 faizə bərabər olub. Bu da ondan xəbər verir ki, davamlı kadr islahatları vətəndaşlar tərəfindən ümummilli rifahın təmin olunmasının alternativsiz yolu kimi qiymətləndirilir.

Respondentlərin cavablarına əsasən demək olar ki, qeyri-neft sektoru ilə bağlı müvafiq hökumət strukturlarının fəaliyyətinin daha da yaxşılaşdırılmasına ehtiyac var. Belə ki, bu istiqamətdə bir çox işlər görülsə də, hələ də çatışmazlıqlar, problemlər qalmaqdadır.

Ümumilikdə, rəyi soruşulanların 83,7 faizi hesab edir ki, ölkə Prezidenti tərəfindən həyata keçirilən kadr və struktur islahatları onların gözləntilərini doğruldur. Kadr islahatları zamanı gənclərə üstünlük verilməsi xalqın gözləntilərinə tamamilə uyğundur. Respondentlərin 86,9 faizi ölkə Prezidentinin müvafiq yanaşmasını dəstəkləyir. Bu, bir daha onunla əlaqələndirilir ki, Prezident həyata keçirdiyi islahatlar zamanı xalqın rəyini nəzərə alır. Respondentlərin 88 faizinin bu mövqedən çıxış etməsi xalqla lider arasında etibarlı bağların olmasından xəbər verir.

Tədqiqatlar göstərir ki, islahatların dərinləşməsi və geniş miqyas alması ilə Prezidentə olan ictimai rəğbətin və dəstəyin artması arasında dərin bağlılıq var. Göründüyü kimi, əhali "Azərbaycanda dövlət siyasətinin mərkəzində insan amili dayanır" prinsipinin reallıqda təzahürünü təsdiqləyir.

Sorğunun nəticələrinə istinadən qeyd etmək olar ki, respondentlər ölkə Prezidentinin öz fəaliyyətində onların maraqlarından, tələbatlarından və gözləntilərindən çıxış etdiyi qənaətindədirlər. Beynəlxalq müstəvidəki uğurlar və daxili siyasətdəki islahatların dərinləşməsi Prezidentin adı və şəxsi təşəbbüsləri, nümunələri ilə bağlı olduğu üçün onun reytinqi ictimai rəydə yüksələn xətt üzrə dinamika nümayiş etdirir və bu tendensiya islahatların davam etməsi fonunda güclənir.

Oktyabr ayında baş verən hadisələri respondentlərin mütləq əksəriyyəti vacib hesab edir. Bu hadisələr arasında ən çox rəğbət doğuranlar Prezidentin "Valday" Beynəlxalq Diskussiya Klubunda çıxışı və Aşqabadda Ermənistanın faşizmi qəhrəmanlaşdırmasına kəskin etiraz nitqi olub.

Dövlət başçısının ordu quruculuğu, xarici siyasət və kadr islahatları istiqamətindəki fəaliyyəti respondentlər tərəfindən daha yüksək qiymətləndirilir. Sorğu iştirakçıları təhlükəsizlik və Silahlı Qüvvələr məsələsinə daim həssaslıq göstərirlər. Lakin sosial-iqtisadi sahədəki fəaliyyətə əhalinin razılıq dərəcəsi bir qədər aşağıdır. Respondentlərin nəzərində oktyabr ayında başlanan islahatların uğurla həyata keçirilməsinə əsas maneə məmurlar, yerli hakimiyyət orqanları və bəzi dövlət qurumlarının laqeyd yanaşmasıdır. Başqa sözlə, sorğuda iştirak edənlərin müəyyən bir hissəsi bu qənaətdədir ki, islahatların uğurlu icrası üçün dövlət qurumlarının özlərinin fəaliyyətində dəyişiklik olmalıdır. Kadr və struktur islahatları respondentlərin böyük əksəriyyətinin gözləntilərini doğruldub və onların əsas gözləntiləri gənc nəsil üçün yeni perspektivlərin və imkanların yaradılması olub. İqtisadiyyat sahəsində gözləntilər yenə də bir qədər aşağı olub, belə ki, iqtisadiyyatda şəffaflıq tədbirlərinin artması gözləntisi olan respondentlər azlıq təşkil edir. Hökumətdə təmsil olunan yaşlı nəslin daha gənc kadrlarla əvəz olunması da respondentlər tərəfindən müsbət qarşılanıb.

Ölkə Prezidentinin fəaliyyətində ictimai rəyin rolunun yüksək olması sorğunun nəticələri ilə təsdiqini tapır və bu fikir aparılan kadr islahatlarına da aid edilir. Əhali oktyabr ayında Prezidentin daxili və beynəlxalq müstəvidəki fəaliyyətini yüksək qiymətləndirir, ona olan etimadın artdığını qeyd edir. Ümumilikdə oktyabr ayını vətəndaşlar ölkəmiz üçün uğurlu sayır.

# Birinci vitse-prezident Mehriban Əliyevanın Rusiyaya rəsmi səfəri başlayıb





Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva noyabrın 20-də Rusiya Federasiyasına rəsmi səfərə gəlib. SİA xəbər verir ki, Moskvanın "Vnukovo 2" Beynəlxalq Hava Limanında Birinci vitse-prezident Mehriban Əliyevanı Rusiyanın Xarici İşlər nazirinin müavini Aleksandr Pankin, Rusiyanın Azərbaycandakı səfiri Mixail Boçarnikov, Rusiya Xarici İşlər Nazirliyinin Dövlət Protokol İdarəsinin rəisi İqor Boqdaşev və Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu qarşılayıblar.

## "Jewish Journal" azərbaycanlı məcburi köçkünlərin Los-Ancelesə səfəri barədə məqalə dərc edib


JEWISH JOURNAL

November 19, 2019

**Delegation of Karabakh Survivors Embraced in Los Angeles**

BY DURDANE AGAYEVA | NOV 19, 2019 | BLOGS

This past week has been a whirlwind of experience and emotion. On November 10, I traveled from Baku to Los Angeles for one week, as part of a delegation of survivors and refugees from the Karabakh region of Azerbaijan, which has been under Armenia's

LATEST STORIES

Jewish Groups, Students Criticize GWU Student Senate for Passing 'Watered Down' Anti-Semitism Resolution

Vassar College President Says 'From the River to the Sea' Chants During Hen Mazzig Speech 'Crossed the Line Into Anti-Semitism'

Ad
The Sore Knee Solution Seniors Swear By (Do This Once Daily)
Arthrozene

Progressive Zionists of



Amerikanın "Jewish Journal" nəşri Xocalı qırğınının möcüzə nəticəsində sağ qalmış sakini Dürdanə Ağayevanın Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş Dağlıq Qarabağ bölgəsindən məcburi köçkünlərdən ibarət nümayəndə heyətinin Los-Anceles şəhərinə səfərinin təfərrüatlarından bəhs edən məqaləsini dərc edib. Müəllif yazır ki, nümayəndə heyətinin tərkibinə Şuşa sakini Tural Gəncəliyev, Laçın rayonundan olan Gülməmməd Məmmədov və Dürdanə Ağayevanın özü kimi Xocalıda soyqırımı yaşamış Ceyhun Ələkbərov daxil olublar.

Los-Ancelesə səfər etmiş məcburi köçkünlərin taleyindən bəhs edən D.Ağaeva qeyd edir ki, Ermənistan qoşunları Xocalını işğal edəndə və dinc əhaliyə qarşı qırğın törədəndə onun cəmi 20 yaşı olub. Gülməmməd isə 1992-ci il mayın 18-də Laçın rayonu işğal olunduğu vaxtdan sonra 10 il ərzində qaçqınlar üçün çadır düşərgəsində yaşayıb. Bu düşərgədə məktəbin olmamasına baxmayaraq, o, UNICEF-in təqdim etdiyi dərsliklər əsasında təhsil alıb və sonradan ABŞ-ın Sirakuz Universitetinə daxil olaraq bu ali məktəbi biofizika üzrə elmlər doktoru dərəcəsi ilə bitirib. Tural Şuşa şəhərindən qovulan 40 min azərbaycanlı sakin ilə birlikdə 12 yaşında məcburi köçkün olub. O, ötən il Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının sədri seçilib və Dağlıq Qarabağdan didərgin düşmüş 80 min azərbaycanlı məcburi köçkün icmasını təmsil edir.

Səfər zamanı nümayəndə heyəti Amerika Yəhudi Komitəsinin, Los-Anceles Konfessiyalararası Şurasının rəhbər şəxsləri, İsa Məsih Kilsəsinin nümayəndələri, Pakistan və Türkiyə icmalarının və Orinc dairəsi İslam Cəmiyyətinin təmsilçiləri, həmçinin Azərbaycanın yaxın dostu olan ravvin Devid Vulpe və Los-Anceles Sinay Məbədinin digər liderləri ilə görüşlər keçirib. Ağayeva qeyd edir ki, nümayəndə heyətinin səfərinin böyük bir hissəsi ABŞ yəhudilərinin ən böyük və gözəl məbədlərindən biri olan Nessa sinaqoqunda təşkil edilmiş xüsusi proqram olub. Proqram çərçivəsində Qarabağda davam edən işğal və dağıntılar barəsində videoçarxlar nümayiş etdirilib, məcburi köçkünlərin hər biri çıxış edərək özünün həyatda qalması tarixçəsini danışıb. Məqalənin sonunda müəllif ümidvar olduğunu bildirir ki, münaqişə tezliklə sülh yolu ilə həllini tapacaq və Azərbaycan torpaqları işğaldan azad ediləcək.

## Ramiz Mehdiyev Cəlil Məmmədquluzadənin nəticəsi ilə görüşüb



AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyev görkəmli Azərbaycan yazıçısı və dramaturqu Cəlil Məmmədquluzadənin nəslinin davamçıları, ədibin hazırda Polşada yaşayan nəticəsi Martin Cavanşiri və kötücəsi Pşemislav Cavanşiri ilə görüşüb. Görüşdə AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli də iştirak edib. Bu barədə SİA-ya AMEA-dan məlumat verilib. Cəlil Məmmədquluzadənin zəngin ədəbi-bədii yaradıcılığından danışan akademik Ramiz Mehdiyev bildirib ki, görkəmli yazıçının Azərbaycan xalqı qarşısında böyük xidmətləri vardır. Mirzə Cəlil hekayə və dramlarında, publisistik əsərlərində Azərbaycan xalqının inkişafına çalışıb, milli istiqlal uğrunda mübarizə aparıb. Ədib haqqında çoxsaylı kitablar, əsərlər və məqalələr yazılıb.

AMEA-nın prezidenti müasir dövrdə Polşa ilə Azərbaycan arasında müxtəlif sferalarda əlaqələrin olduğunu deyib. Həmçinin qeyd edib ki, polşalılar uzun illər Azərbaycanda yaşayıb-yaradıb, polşalı memarlar tarixi binalar tikiblər. Akademik Ramiz Mehdiyev Cəlil Məmmədquluzadənin nəslinin davamçılarının tapılması istiqamətində uzun illər araşdırmaların aparıldığını bildirib. Qeyd edib ki, onların səfəri zamanı ulu babaları Cəlil Məmmədquluzadənin həyat və yaradıcılığı ilə tanış olmaq üçün lazımi şərait yaradılmışdır.

Sonra akademik Ramiz Mehdiyev qonaqlara Naxçıvan xalçası hədiyyə edib. Daha sonra çıxış edən Martin Cavanşiri Azərbaycana dair təəssüratlarını bölüşüb. O, ölkəmizə ilk dəfədir səfər etdiyini və böyük maraqla qarşılandığını deyərək, ulu babasının Azərbaycan xalqı tərəfindən yüksək qiymətləndirilməsinin son dərəcə təsirli və həyəcanlı, eyni zamanda, qürurverici hadisə olduğunu vurğulayıb. Bundan əlavə, o, Polşaya qayıdan zaman Azərbaycan və burada öyrəndikləri haqqında xoş təəssüratlarını ailəsinə, yaxın qohumlarına və geniş ictimaiyyətə çatdıracağını bildirib. Martin Cavanşiri onları AMEA-da qəbul etdiyinə görə akademik Ramiz Mehdiyevə dərin minnətdarlığını ifadə edib.

# Yeni Azərbaycan Partiyası niyə və necə yarandı?

*21 noyabr 1992-ci il - Azərbaycanda YAP-ın və sivil müxalifətçilik ənənəsinin yaranma tarixi*

***Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov "Facebook" səhifəsində "Yeni Azərbaycan Partiyası niyə və necə yarandı?" adlı status paylaşıb. AZƏRTAC statusu təqdim edir.***



Bir müddət əvvəl yazdığım statuslardan birində qeyd etmişdim ki, 1990-cı il yanvarın 20-də Bakıda sovet qoşunları tərəfindən törədilən qanlı hadisələrin səbəbkarı olan SSRİ və Azərbaycan rəhbərliyini növbəti gün Moskvadakı daimi nümayəndəliyə gələrək açıq formada ittiham edən Heydər Əliyev sonrakı günlərdə Kremlin ciddi təzyiqləri altında öz doğma vətəninə - Azərbaycana qayıtdı. Ayaz Mütəllibov hökuməti ona Bakıda yaşamaq imkanı vermədiyi üçün 1990-cı il iyulun 22-də, yəni, Moskvadan qayıtdıqdan cəmi iki gün sonra paytaxtı tərk edərək Naxçıvana üz tutdu. 1990-cı ilin avqust ayında qədirbilən Naxçıvan əhalisi təşəbbüs göstərərək Heydər Əliyevi həm Azərbaycan SSR Ali Sovetinə, həm də Naxçıvan MSSR Ali Sovetinə deputat seçdi. MR Ali Sovetinin 1990-cı il noyabrın 17-də keçirilən birinci sessiyasında Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "sovet" və "sosialist" sözləri çıxarıldı. Naxçıvan MSSR Ali Sovetinin adı dəyişdirilərək Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırıldı. Ali Məclisin birinci sessiyasında, həmçinin Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli, ay-ulduzlu bayrağının Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar qəbul olundu və Azərbaycanın ali hakimiyyət orqanı qarşısında məsələ qaldırıldı ki, Azərbaycan Respublikasının dövlət rəmzləri haqqında analoji qərarlar qəbul edilsin. Heydər Əliyevin təşəbbüsü ilə qəbul edilən bu tarixi qərarlar və müstəqillik istiqamətində həyata keçirilən sonrakı proseslər, o cümlədən 1991-ci il sentyabrın 3-də onun Naxçıvan Ali Məclisinin sədri seçilməsi belə deməyə əsas verir ki, həmin dövrdə Heydər Əliyevin Naxçıvana gəlişi ilə Azərbaycan xalqının milli azadlıq hərəkatının mərkəzi Bakıdan Naxçıvana keçdi və bu hərəkatın lideri də məhz Heydər Əliyev oldu. Sonrakı proseslərdə Heydər Əliyevin deputat kimi nümayiş etdirdiyi ardıcıl və mübariz vətəndaşlıq mövqeyi, Azərbaycanın müstəqilliyi uğrunda ölkə parlamentinin tribunasından etdiyi qətiyyətli çıxışlar, ümummilli problemlərin həllinə xidmət edən səmərəli təklifləri onu tezliklə milli azadlıq hərəkatının gerçək liderinə çevirdi.

Milli azadlıq hərəkatının mərkəzinin Bakıdan Naxçıvana keçməsi və hərəkatın başında Heydər Əliyev kimi təcrübəli liderin - görkəmli siyasi və dövlət xadiminin dayanması qısa zaman kəsiyində Azərbaycan cəmiyyətində milli qurtuluş ideyası ətrafında böyük təmərküzləşməyə səbəb oldu. Belə ki, əhalinin bütün təbəqələri, xüsusilə də mütərəqqi ziyalılar, hətta ciddi təqibə məruz qalmış AXC fəallarının böyük bir qismi Heydər Əliyevin ətrafında cəm oldular. Bu reallıq xalq hərəkatına həqiqi mütəşəkkillik, ardıcıllıq və vətəndaş birliyi ruhu gətirdi, Azərbaycan xalqı milli müstəqilliyin əleyhinə məqsədyönlü fəaliyyət göstərən Mütəllibov rejiminə qarşı vahid cəbhədən çıxış etməyə başladı. Heydər Əliyev Azərbaycan Ali Sovetindəki "demblok" nümayəndələrini də milli azadlıq hərəkatı ideyası altında öz ətrafına birləşdirərək, yerli kommunist hökumətinin iradəsini sındıraraq oktyabrın 18-də müstəqillik haqqında Konstitusiya Aktının qəbul edilməsinə və müstəqillik məsələsinə dair yeni referendumun təyin edilməsinə nail oldu. Bundan əvvəl Ümummilli Lider Azərbaycan rəhbərliyinin SSRİ-nin saxlanması ilə bağlı yeni ittifaq müqaviləsinə qoşulma cəhdinə də hamıdan qabaq - 1991-ci il martın 7-də Azərbaycan Ali Sovetinin sessiyasındakı çıxışında ciddi etiraz etmiş və Mütəllibov hakimiyyətinin Azərbaycanı yeni ittifaqın tərkibinə daxil etməsinin, bunun üçün respublikada xüsusi referendum keçirilməsinin qəti əleyhinə olduğunu birmənalı şəkildə bəyan etmişdi.

Beləliklə, bütün bu proseslərin nəticəsi olaraq kommunistlərin təkidlə həyata keçirmək istədiyi həm "yenilənmiş SSRİ müqaviləsi" layihəsi, həm də nüfuzdan düşmüş yerli kommunist hökumətinin özü iflasa uğradı. Cəbhə-Müsavat dairələri ölkədə kommunist rejiminin mövcud acınacaqlı vəziyyətindən istifadə edərək silahlı yolla rəhbərliyi devirdi və hakimiyyəti ələ aldı. O dövrdə milli-demokratik hərəkat rəhbərləri azadlıq və demokratiya prinsiplərinə, respublikada yenicə yaranmaqda olan milli birlik və ədalətli seçki normalarına zidd hərəkət edərək, Heydər Əliyev kimi təcrübəli bir liderin demokratiya və milli azadlıq mübarizəsi istiqamətindəki xidmətlərinə qarşı çox ədalətsiz gediş etdilər. 1992-ci il mayın 18-də Ali Sovetə sədr seçkisində AXC rəhbərliyi deputatların böyük hissəsinin və ölkə ictimaiyyətinin tələbinə baxmayaraq, Heydər Əliyevin namizədliyinin irəli sürülməsinə, hətta parlamentdən onunla əlaqə yaradılmasına ciddi mane oldular. Onlar öz namizədlərinin sədr "seçilməsi"nin hansısa doqquz xarici dövlətlə razılaşdırılması barədə cəfəng antidemokratik fikirlər səsləndirərək öz iddialarını reallaşdırdılar. Hakimiyyətə tam yiyələndikdən sonra bu dairələr gələcəkdə Heydər Əliyevi özlərinə ciddi rəqib sayaraq bütün vacib işlərini bir kənara qoyub onunla qeyri-qanuni və antikonstitusion mübarizəyə başladılar, dəfələrlə Naxçıvanda dövlət çevrilişinə, Ali Məclis Sədrinin fiziki varlığına son qoymağa cəhd göstərdilər. Belə qeyri-demokratik və antimilli vasitələrlə fəaliyyət göstərən AXC-Müsavat cütlüyünün birillik hakimiyyəti dövründə Azərbaycanın müstəqilliyinə, dövlətçiliyinə, milli-vətəndaş birliyi ideyasına böyük zərbə vuruldu, ölkə vətəndaş müharibəsi həddinə sürükləndi. Mövcud hakimiyyətin yarıtmaz siyasətinin nəticəsi olaraq gündən-günə kəskinləşən vətəndaş qarşıdurmasını açıq şəkildə müşahidə edərək yaxınlaşan milli fəlakəti hamıdan qabaq duyan və buna müqavimət göstərməyi qarşılarına məqsəd qoyan bir qrup vətənpərvər ziyalı 1992-ci il oktyabrın 16-da Heydər Əliyevə müraciət ünvanladı. Müraciətdə ziyalılar Azərbaycanı düçar olduğu fəlakətli böhrandan çıxarmaq məqsədilə ölkədə bütün xalqı, sağlam düşüncəli bütün qüvvələri öz ətrafında birləşdirə bilən yeni bir siyasi ümumxalq partiyasının yaradılması və ona rəhbərlik etməsi məsələsinə münasibət bildirməyi Heydər Əliyevdən xahiş edirdilər. Respublikada gündən-günə kəskinləşən və getdikcə daha da fəlakətli vəziyyət alan daxili ictimai-siyasi və milli vətəndaş qarşıdurması fonunda Azərbaycanı canı qədər sevən bir lider olaraq Heydər Əliyev əlbəttə ki, çoxsaylı ölkə ziyalılarının, geniş xalq kütlələrinin tələblərini cavabsız qoya bilməzdi. Belə də oldu, cəmi bir həftə sonra - oktyabrın 24-də "Səs" qəzetində ölkə ziyalılarının müraciətinə Heydər Əliyevin cavabı dərc olundu. Bu, əslində adi bir cavab deyildi, Azərbaycanın mövcud fəlakətli vəziyyətinin hərtərəfli təhlili və ondan çıxış yollarını göstərən ciddi bir milli fəaliyyət proqramı idi.

Sonrakı prosesləri, hörmətli oxucuların yadına salmaq istəyirəm: Heydər Əliyevin qurub-yaratdığı və demək olar ki, bütün geniş iclas salonlarını inşa etdiyi Bakı şəhərində onun adı ilə yaradılan partiyaya qurultay keçirməyə yer və imkan verilmədi. Odur ki, ölkənin dörd bir yanından Naxçıvan şəhərinə axışan ziyalılar, partiya quruculari soyuq və şaxtalı 21 noyabr günündə Yeni Azərbaycan Partiyası (YAP) adlanan siyasi təşkilatı təsis etdilər. Cəmi 7 ay sonra, 1993-cü ilin iyununda xalqın tələbi ilə ümumxalq partiyasının sədri, Azərbaycan xalqının görkəmli lideri Heydər Əliyev siyasi hakimiyyətə qayıtdı. Onun qayıdışı ilə ölkənin bütün sağlam qüvvələri, ictimai-siyasi və mənəvi potensialı hakimiyyət ətrafında səfərbər edilərək Azərbaycanı sonrakı labüd iflasdan xilas etdilər.

Heydər Əliyev 1993-2003-cü illərdə Azərbaycan Respublikasının Prezidenti kimi xalqına arxalanaraq və YAP sədri kimi partiyasının kadr potensialına söykənərək özünün zəngin dövlətçilik təcrübəsini və uzaqgörən siyasətini tətbiq edərək çox qətiyyətli, müdrik, effektli idarəçilik həyata keçirdi. Azərbaycanın dövlət müstəqilliyini və milli inkişafını təmin etdi, respublikada demokratik dövlət quruculuğu, siyasi plüralizm, vətəndaş cəmiyyəti və bazar iqtisadiyyatı normalarını dönməz hala gətirdi, ölkəni dinamik inkişaf yoluna çıxardı və öz adını xalqımızın dövlətçilik tarixinə müstəqil, demokratik Azərbaycan dövlətinin banisi və lideri kimi həkk etdi.

Ulu Öndərin haqq dünyasına qovuşmasından keçən 16 il ərzində Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən qətiyyətli siyasət, görülmüş nəhəng işlər, qazanılmış böyük uğurlar bu gün Azərbaycan xalqı tərəfindən məmnunluqla qarşılanır və tam dəstəklənir. Keçirilən sorğuların nəticələri göstərir ki, xalqın dəstəyi ölkə Prezidenti və YAP sədri kimi cənab İlham Əliyevə müstəqil, prinsipial və milli maraqları ifadə edən qətiyyətli siyasət yürütməyə hərtərəfli imkan verir. Belə liderə və onun müzəffər partiyasına qalib gəlmək heç bir qüvvəyə, ələlxüsus da hazırkı radikal müxalifətə nəsib olmayıb, bundan sonra da olmayacaq. Hazırda Yeni Azərbaycan Partiyası öz liderinin siyasi islahat kursuna, irəli sürdüyü təşəbbüslərə və yeni dövrün çağırışlarına uyğun olaraq partiyanın vitrinini xeyli dərəcədə yeniləmiş, öz sıralarına çoxsaylı təşəbbüskar və fəal üzvlər, təşkilatı hakimiyyətdə və parlamentdə təmsil edə biləcək yeni-yeni intellektual kadrlar cəlb etmişdir. Bir sözlə, Yeni Azərbaycan Partiyası Ümummilli Liderin siyasi ənənələrinə söykənərək "daim yenilənmə, daim dəyişmə və daim inkişaf etmə" kursunu ardıcıl olaraq davam etdirmişdir.

Beləliklə, müstəqillik dövrünün tarixi, yaşadığımız hər bir gün Ulu Öndərin söylədiyi müdrik bir kəlamı - "zaman hər şeyi öz yerinə qoyur" ifadəsini bir daha təsdiq edir.

***Heydər Əliyev 1993-2003-cü illərdə Azərbaycan Respublikasının Prezidenti kimi xalqına arxalanaraq və YAP sədri kimi partiyasının kadr potensialına söykənərək özünün zəngin dövlətçilik təcrübəsini və uzaqgörən siyasətini tətbiq edərək çox qətiyyətli, müdrik, effektli idarəçilik həyata keçirdi. Azərbaycanın dövlət müstəqilliyini və milli inkişafını təmin etdi, respublikada demokratik dövlət quruculuğu, siyasi plüralizm, vətəndaş cəmiyyəti və bazar iqtisadiyyatı normalarını dönməz hala gətirdi, ölkəni dinamik inkişaf yoluna çıxardı və öz adını xalqımızın dövlətçilik tarixinə müstəqil, demokratik Azərbaycan dövlətinin banisi və lideri kimi həkk etdi***

# "Ötən illər, Heydər Əliyevin bir çox ideyaları kimi, Yeni Azərbaycan Partiyasının gələcəyin partiyası olacağı haqqında fikirləri də böyük uzaqgörənlik nümunəsi olduğunu sübuta yetirib"

***Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini-İcra katibi Əli Əhmədov Yeni Azərbaycan Partiyasının yaranmasının 27-ci ildönümü münasibətilə özünün rəsmi "facebook" səhifəsində "Azərbaycanın dünəni, bu günü və gələcəyi" sərlövhəli məqaləsində paylaşmışdır.***




Baş nazirin müavini Əli Əhmədov qeyd etmişdir: "Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev özünün yaratdığı Yeni Azərbaycan Partiyasının ölkəmizin tarixində yerini, məhz bu cür müəyyənləşdirmişdi. Partiyanın yaranmasından artıq 27 il keçir. Noyabr ayının 21-də Yeni Azərbaycan Partiyasının yaranmasının növbəti ildönümü qeyd olunacaq. Ötən illər Heydər Əliyevin bir çox ideyaları kimi, Yeni Azərbaycan Partiyasının gələcəyin partiyası olacağı haqqında fikirlərinin də böyük uzaqgörənlik nümunəsi olduğunu sübuta yetirib."

Baş nazirin müavini məqalədə daha sonra qeyd edir: "Keçən əsrin 90-cı illəri Azərbaycanın tarixinə həm şanlı, həm də qara səhifələr kimi daxil olub. Dövlət müstəqilliyinin bərqərar olması, xalqın çoxdan arzuladığı azadlığa qovuşması tariximizin şanlı səhifələrini təşkil etdiyi halda, ölkəmizin erməni təcavüzünə məruz qalması, 20 faiz torpaqlarımızın işğal olunması, minlərlə vətəndaşımızın həlak olması, onun qara səhifəsidir. Ancaq təəssüf hissi ilə bildirməliyəm ki, yaşamağa məhkum edildiyimiz qara, təlatümlü günlər yalnız yuxarıda deyilənlərlə məhdudlaşmır. 1992-ci ildə xalq hərəkatı dalğası üzərində hakimiyyətə gələnlərin ölkəyə və xalqa yaşatdırdıqları müsibətlər qeyd olunanlardan heç də az tünd rəngdə deyil. İqtisadiyyatın talan edilməsi, iş yerlərinin kütləvi surətdə bağlanması, 1600 faizə çatan hiperinflyasiya, Bakının tükürpədən simasına çevrilmiş çörək növbələri, xaos, anarxiya, dərəbəylik, siyasi qeyri-müəyyənlik və qeyri-sabitlik insanların yaşamaq ümidlərini, bütünlüklə qırmışdı. Şimalda və cənubda baş qaldırıb tüğyan edən separatçılıq dövlətin müstəqilliyi və ölkənin bütövlüyü üçün ciddi təhdidə çevrilmişdi.

Yeni Azərbaycan Partiyası belə bir zamanda yarandı, onun qurucusu və lideri Heydər Əliyev ümidsizliyə qapanmış ölkəyə ümid verdi, tarixi xilaskarlıq missiyasını öz çiyinləri üzərinə götürdü. Qısa vaxtda yuxarıda sadalanan böhranlar və təlatümlər, təhlükələr aradan qaldırıldı. Azərbaycan yenidən canlandı, ayağı üzərinə qalxdı, ölkədə iqtisadi və siyasi islahatlar keçirildi, ən əsası isə, insanlar müstəqilliyin və azadlığın faydalarını görməyə başladı, xalq isə, sözün həqiqi mənasında, öz taleyinin sahibi oldu."

Əli Əhmədov daha sonra bildirir ki, Yeni Azərbaycan Partiyasının tarixi Azərbaycanın iqtisadiyyatının möhtəşəm inkişafı, insanların rifahının yaxşılaşması, ölkənin simasının inanılmaz dərəcədə müasirləşməsi və yaxşılaşması, ordumuzun qüdrətinin artması, dünya miqyasında nüfuzunun yüksəlməsi və daha nə qədər tarixi möhtəşəm dəyişikliklərin tarixidir: "2003-cü ildən bu yana keçən illərdə Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın ağlagəlməz sosial-iqtisadi və mədəni sıçrayışı, dünyanın ən dinamik iqtisadiyyatı, ən islahatçı dövləti, çiçəklənən ölkəsi adını qazanması, bir çox mötəbər reytinqlərdə ən layiqli yer tutması, müasir tariximizin ən parlaq səhifələri kimi, yaddaşlara həkk olunub. Azərbaycan indi bütün yer kürəsində bu cür tanınır, sayılır və hörmət edilir."

"Yeni Azərbaycan Partiyasının tarixi kimi bu günü də parlaq və qürurvericidir. Həyatımızın ən böyük neməti olan müstəqillik və təhlükəsizlik göz bəbəyi kimi qorunur. Ölkəmizin dünyada ən sabit və təhlükəsiz ölkələrdən biri olması insanlarımızın qürur və rahatlıq mənbəyidir. İnkişaf, tərəqqi və müasirləşmə Azərbaycanın həyatının ayrılmaz tərkib hissəsinə çevrilib. Hər yerdə inkişaf, hər yetdə yeniləşmə müşahidə olunmaqdadır. Şərəfli tarixi, parlaq bugünü ilə qürur duyan Yeni Azərbaycan Partiyasının ən böyük avantajı onun gələcəyidir. 27 il bundan əvvəl, insanlarımız Azərbaycanın gələcəyini Yeni Azərbaycan Partiyasında gördükləri kimi indi də parlaq gələcəyini onunla bağlayır. Prezident İlham Əliyevə olan inam və Onun siyasətinin uğurları Azərbaycanın gələcəyə doğru inamlı addımlarının sınanmış yol xəritəsidir. Bu yol bizi daha böyük nailiyyətlərə, daha firavan gələcəyə və daha qüdrətli dövlətə doğru aparır. İnamla getdiyimiz yolda qarşımıza tör-töküntülər də çıxır. Onların əksəriyyəti tariximizin qaranlıq səhifəsini təşkil edən 1992-1993-cü illərdən qalmadır və alaq otu kimi ayaqlara dolaşır. Xalqın etimadını qazana bilməyən bu zatlar böhtan atmağı, qara yaxmağı, yalan və şayiələr uydurmağı özlərinə peşə seçiblər. Heç bir işıqlı ideyaların daşıyıcısı olmamaları bir yana qalsın, cəmiyyətdə mənəviyyatsızlığın baş təbliğatçısına çevriliblər. Müasir informasiya texnologiyalarının yaratdığı fürsətdən istifadə edərək, anonim şəkildə insanlara qarşı mənəvi terror təşkil edir, şəxsiyyətini və ləyaqətini aşağılamağa çalışır, sanki bundan həzz alırlar. Qeyri-ixtiyari yadıma onların natamamlıq kompleksi və bir də Azərbaycanın müasir məğrur yüksəlişində ayaqlara dolaşan o zamandan qalan tör-töküntülərə 1993-cü ildə xalqın mütləq əksəriyyətinin dərin nifrəti düşür. Aradan 26 il keçməsinə baxmayaraq, o nifrət hələ də unudulmayıb.

Gələcək tör-töküntülər deyil, sağlam köklər üzərində qərar tutub yüksəlir. Bu sağlam kökləri isə, özündə Yeni Azərbaycan Partiyası ehtiva edir. Azərbaycanın parlaq gələcəyi Yeni Azərbaycan Partiyasındadır" deyə məqalədə belə qeyd olunub.

Baş nazirin müavini Əli Əhmədov məqaləsini təbriklərlə yekunlaşdırıb: "Yeni Azərbaycan Partiyasının yaranmasının 27-ci ildönümü münasibətilə başda partiyanın Sədri Cənab İlham Əliyev, Sədrin müavini Mehriban xanım olmaqla, bütün təşkilat üzvlərini təbrik edir, ölkəmizin firavan gələcəyi naminə Onlara yeni-yeni nailiyyətlər arzulayıram."

**RƏFİQƏ KAMALQIZI**

## "Azərbaycan gəncliyi etimadı layiqincə doğrultmalıdır"

"Azərbaycan gəncləri gündən-günə ölkənin ictimai-siyasi həyatında daha böyük rol oynayırlar. Hazırda respublikada mövcud olan yüzlərlə qeyri-hökumət və gənclər təşkilatlarının aktiv fəaliyyəti dövlətin yaratdığı şərait sayəsində mümkün olub. Məhz dövlətin gənclərə dəstək və diqqət göstərməsi Azərbaycan gəncliyində özünə, öz gücünə, istedadına inam hissini artırıb. Gənclərimiz iştirak etdikləri beynəlxalq olimpiadalarda və idman yarışlarında yeni-yeni qələbələrlə ölkəmizin şərəfini ucaldıblar". Bunu SİA-ya YAP Gənclər Birliyinin sədri Seymur Orucov deyib. S.Orucov bildirib ki,



Azərbaycanda gəncliyin inkişafı ilə bağlı Dövlət proqramları da həyata keçirilir. Bu proqramlar Azərbaycan gəncliyinin inkişafına böyük töhfələr verir. Eləcə də, gənclər daim irəli çəkilir, mühüm dövlət postlarına təyin olunurlar. Yəni, dövlət idarəçiliyində, eləcə də seçkili orqanlarda gənclərin təmsilçiliyi artır. Həmçinin, müxtəlif sahələrdə uğurlar qazanan, Azərbaycanın adını yüksəldən gənclərimiz dövlət rəhbərliyi tərəfindən layiqincə dəyərləndirilirlər.

"Gəncliyin qarşısında dayanan əsas vəzifə bundan ibarətdir ki, bilikli, yüksək təhsilli, vətənpərvər olmalı, dövlətimizin inkişafına və daha da güclənməsinə, müstəqilliyimizin qorunmasına böyük töhfələr verməlidirlər. Bu baxımdan, Azərbaycan gəncliyi dövlətin göstərdiyi etimadı layiqincə doğrultmalıdır. Gənclərimiz bu yolda inamla irəliləyir və gələcəkdə daha yüksək nəticələr əldə olunacaq"-deyə, S.Orucov vurğulayıb.

## NATO: Avropa İttifaqı Avropanı müdafiə etməyə qadir deyil



NATO-nun Baş katibi Yens Stoltenberqin fikrincə, Aİ Avropanı müdafiə etmək iqtidarında deyil. Yens Stoltenberq bu barədə "El Pais" qəzetinə müsahibəsində deyib. "Gələn həftə Parisə getməyi və Prezident Emmanuel Makronla alyansın "beyninin ölməsi" barədə məsələni müzakirə etməyi planlaşdırıram. Deyə bilərəm ki, NATO bu gün güclü, operativ və təhlükəsizliyimiz üçün vacib qurumdur. Avropa İttifaqı transatlantik blokunu əvəz edə bilməz. Aİ lazımlıdır, lakin o, Avropanı qoruya bilməz", - deyə NATO-nun baş katibi bildirib.

## "Bələdiyyə seçkilərində namizədlərin sayı 42 mini keçib"



Azərbaycanda dekabrın 23-ə təyin edilmiş bələdiyyə seçkiləri ilə əlaqədar olaraq dairə seçki komissiyalarına (DSK) 42 625 iddiaçı bildiriş verib. SİA-nın verdiyi məlumata görə, bunu Mərkəzi Seçki Komissiyasının (MSK) sədr müavini Rövzət Qasımov bildirib.

R.Qasımov deyib ki, həmin şəxslərdən 35 574 nəfəri namizəd statusunu alıb və qeydiyyatdan keçib. Onun sözlərinə görə, proses hələ davam edir, namizədlər daha çox fəallıq nümayiş etdirirlər: "Sevindirici haldır ki, xanım və gənc namizədlər fəallıq nümayiş etdirirlər. Qeydiyyatdan keçərək namizəd statusu almış passiv seçki hüququna malik vətəndaşlarımızın təxminən 30 faizindən çoxu xanımlardır. Bu da əlbəttə ki, yaxşı bir göstəricidir. Bayaq dediyim kimi, gənclər də xüsusi fəallıq nümayiş etdirirlər. Qeydə alınmış namizədlərin təxminən 28 faizə yaxını gənclərdir. Bu seçkilərdə hətta yaşı 21-dən aşağı olan 300-ə yaxın gənc artıq namizəd olaraq qeydə alınıb".

## "YARAT" da yeni tamaşa nümayiş olunacaq

Noyabrın 28-də "YARAT" Müasir İncəsənət Mərkəzində Jan Jenenin məşhur "Qulluqçu" pyesi əsasında Raulə Turkkanın quruluşunda səhnələşdirilən eyniadlı tamaşa nümayiş ediləcək. SİA-nın məlumatına görə, tamaşada iki bacının həyatından bəhs olunur. Qulluqçular - Solanj və Kler bacıları öz acı talelərinin öhdəsindən gəlməyə çalışırlar. Onlar, öz sahibələrinə qulluq etməkdən yorulublar və həyatlarının qalan hissəsini mətbəxdə keçirmək istəmirlər. Bacılar təkcə öz işlərinə, sahibləri "Madam"a deyil, həm də bir-birlərinə nifrət edirlər. Öz talelərinə nifrət edən qulluqçular, "Madam"ı və ya bir-birlərini "oynamaqla", bu oyunda öz talelərinin öhdəsindən gəlməyə çalışırlar.



# Yeni Azərbaycan Partiyası Azərbaycanın müasir tarixində böyük fenomendir

***Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin xalqımız, dövlətimiz qarşısında xidmətlərindən bəhs edərkən müstəqillik tariximizin bələdçisi olan, bu gün nəinki ölkəmizin, regionun aparıcı siyasi təşkilatına çevrilən, milyonların partiyası kimi nüfuz qazanan Yeni Azərbaycan Partiyasının yaradılmasını xüsusi qeyd etməliyik. Dahi şəxsiyyət Heydər Əliyevin "Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır" tezisi bütün dövrlər üçün öz aktuallığını qorumaqla yanaşı partiyanın gələcək inkişaf yoluna işıq salır.***

Hər bir önəmli hadisə keçilən yolun təhlilini bir zərurət kimi ortaya qoyduğundan bu gün yaradılmasının 27 illiyini qeyd etdiyimiz Yeni Azərbaycan Partiyasının da zəngin və şərəfli yolu, 750 minə yaxın üzvü sıralarında birləşdirməklə Azərbaycan reallıqlarının, Heydər Əliyev ideyalarının təbliğinə geniş imkanlar açılması təhlil olunmaqda, böyük gələcəyi olan təşkilat kimi dəyərləndirilməkdədir. Orta və yaşlı nəsil baş verən hadisələrin bələdçisi kimi, gənc nəsil isə müstəqillik tariximizi eşitdiklərinə, oxuduqlarına istinadən təhlil edir və bu fikir böyük fəxr hissi ilə qeyd edilir ki, ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə belə bir partiyanın yaradılması həmin dövrün tələbi, ortaya çıxan zərurət, bu günümüz üçün möhkəm təməl idi.

Müstəqillik tariximizin ilk illəri xaos, anarxiya, özbaşınalıq, iqtisadi böhran, torpaqlarımızın işğalı dövrü kimi xarakterizə olunur. Xalqın sabaha ümidi yox idi. Belə bir çətin məqamda xalqın böyük əksəriyyətinin istəyinin ifadəsi kimi 91 nəfər ziyalının ulu öndər Heydər Əliyevə "Azərbaycan Sizin sözünüzü gözləyir" müraciəti ölkəmizin bugünkü inkişafı üçün möhkəm təməl oldu. Belə ki, həmin müraciətdə bir daha qeyd olunmuşdur ki, indiki vəziyyətdə bu çətin, məsuliyyətli işi respublikada öz öhdəsinə götürməyə qadir yeganə şəxs Sizsiniz: "Uzun illər əldə etdiyiniz dövlət quruculuğu təcrübəsinə əsaslanaraq Siz qısa müddətdə Azərbaycanda geniş xalq kütləsini əhatə eləyəcək çox güclü, nüfuzlu və işlək bir partiya yaratmağa qadirsiniz." Həmin müraciətdə bu əminlik də ifadə edilmişdir ki, əgər bu partiyanın bünövrəsini Sizin kimi güclü dövlət xadimi qoyarsa, o uzun illər xalqımızın bir neçə nəsli üçün də siyasi yetkinlik məktəbi olar.

Ulu öndər Heydər Əliyevin "91-lər"in müraciətinə "Yeni, müstəqil Azərbaycan uğrunda" çavabı itirilən ümidlərin bərpa olunacağına inam yaratdı. "Güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində Sizin müraciətinizdə göstərilən Yeni Azərbaycan siyasi partiyasının yaradılması obyektiv zəruriyyətdən doğur" söyləyən ulu öndər Heydər Əliyev belə bir əminliyi də ifadə etmişdir ki, belə partiya Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak edərək yeni müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində tarixi rol oynaya bilər.

İstər müraciətə, istərsə də Ümummilli Liderin cavabına diqqət yetirsək, Azərbaycanın müstəqilliyinin bir sərvət olduğu və onun qorunması üçün bütün qüvvə və bacarıqların birləşdirilməsinin vacibliyi öz əksini tapır. Təsadüfi deyil ki, bu gün xalqın partiyası kimi tanınan Yeni Azərbaycan Partiyası öz adında bütün istəkləri, arzuları birləşdirir. 1991-ci il 18 oktyabrda öz dövlət müstəqilliyini yenidən bərpa edən Azərbaycan ilk illərdə ölkəyə rəhbərlik edənlərin səriştəsizliyi, idarəçilik qabiliyyətlərinin yoxluğu, öz şəxsi ambisiyalarını



*Siyavuş Novruzov,
Yeni Azərbaycan Partiyasının İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlarla iş komitəsinin sədri*

dövlət maraqlarından üstün tutmaları sayəsində öz müstəqilliyini itirmək, dünya xəritəsindən silinmək təhlükəsini yaşadı. Ulu öndər Heydər Əliyevin yeni yaradılacaq partiya üçün "Yeni Azərbaycan" adını məqsədəuygun bilməsi bu səbəbdən təsadüfi deyildi. Xatırlasaq, partiyanın seçkilərdə ilk şüarı "Yeni Azərbaycan uğrunda" olub. İlk gündən dövlətə, xalqa xidməti fəaliyyətinin önündə saxlayan, Azərbaycanın müstəqilliyinin qorunması və möhkəmləndirilməsi istiqamətində ciddi səylər göstərən Yeni Azərbaycan Partiyası müxalifət partiyası kimi yaransa da, xalqa, dövlətə müxalifətdə deyildi, milli maraqlarımız, dövlətçiliyimiz ubrunda tutduğu siyasi xəttin əsasını təşkil edirdi. Təbii ki, sözlə əməl birliyi, tutduğu yola sadiqlik partiyaya milyonların sevgisini qazandırdı.

### Ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı Azərbaycanın, eyni zamanda, Yeni Azərbaycan Partiyasının həyatında yeni bir səhifə açdı

Yeni Azərbaycan Partiyası yarandıqdan 7 ay sonra iqtidar partiyasına çevrildi. 1993-cü ildə ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı Azərbaycanın, eyni zamanda, ölkənin ictimai-siyasi həyatında aparıcı rol oynayan Yeni Azərbaycan Partiyasının həyatında yeni bir mərhələnin təməlini qoydu. Ümummilli Lider uğurlu daxili və xarici siyasəti ilə ölkədə sabitlik yaratdı. Bu reallıq bir daha diqqətə çatdırıldı ki, sabitlik olmadan hansısa sosial-iqtisadi proqramların icrasından danışmaq qeyri-mümkündür. Ulu öndər Heydər Əliyevin gərgin səyləri nəticəsində 1994-cü il mayın 12-də cəbhə xəttində atəşkəs sazişinin imzalanması həm ölkədə sabitliyin yaradılmasına, həm də digər sahələrdə uğurlu addımların atılmasına yol açdı. Məhz həmin ilin sentyabrın 20-də tarixə "Əsrin müqaviləsi" kimi daxil olan neft sazişi imzalandı. Bununla Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyasının əsası qoyuldu. Azərbaycana artan inam ölkə iqtisadiyyatına qoyulan investisiyaların həcmində, həmçinin imzalanan saziş və Anlaşma Memorandumlarının sayında da özünü qabarıq şəkildə büruzə verdi. Bu gün fəxrlə qeyd etdiyimiz uğurlarımızdan biri budur ki, tarixən neft ölkəsi kimi tanınan Azərbaycan, həmçinin qaz ixracatçısıdır. Çoxlarına əfsanə kimi görünən BTC və BTƏ neft-qaz layihələrinin uğurlu icrası nəticəsində Azərbaycan regionun aparıcı qüvvəsinə, dünyanın enerji təhlükəsizliyinin təminatçısına çevrildi. Ulu öndər Heydər Əliyevin böyük uzaqgörənliklə yaratdığı Dövlət Neft Fondunun vəsaitləri hesabına bu gün biri-birindən əhəmiyyətli sosial-iqtisadi layihələr həyata keçirilir ki, onlar da ümumilikdə ölkənin hərtərəfli inkişafını təmin edir.

Ulu öndər Heydər Əliyevin uğurlu siyasəti nəticəsində ölkəmizdə demokratik cəmiyyətin varlığını təsdiqləyən bütün atributlar bərqərar oldu. Belə ki, 1995-ci il noyabrın 12-də qəbul olunan Milli Konstitusiyamız insan hüquq və azadlıqlarının qorunmasında ən möhkəm baza rolunu oynayır. Ölkəmizdə azad mətbuatın inkişafı, çoxpartiyalı sistemin yaradılması, seçkilərin demokratik, beynəlxalq standartlara uyğun keçirilməsi istiqamətində mühüm addımlar atıldı.

Əbəs yerə deyilmir ki, zaman hakim, tarix isə yaddaşdır. Tarixin səhifələrini vərəqləyərək, zamanın yaddaşına söykənərək bu fikri böyük inam və qətiyyətlə bildiririk ki, bu gün sırasında 750 minə yaxın üzvü birləşdirən, gələcəyə böyük inamla addımlayan Yeni Azərbaycan Partiyası Azərbaycanın bütün sahələrdə, o cümlədən demokratik inkişaf sahəsində əldə etdiyi uğurlarda böyük rolu vardır. Ulu öndər Heydər Əliyevin fikirlərinə istinad etsək, YAP Azərbaycanda gedən ictimai-siyasi proseslərin içərisindən çıxan zərurətdir: "O, bir adamın istəyi ilə yaranan partiya deyildir. Azərbaycanda yaranan partiyaların bir çoxu ayrı-ayrı şəxslərin, siyasi fəaliyyətə başlayan adamların şəxsi təşəbbüsü ilə, onların ətrafında toplaşan adamların təşəbbüsü ilə yaranan partiyalardır. Ancaq Yeni Azərbaycan Partiyasının fərqi ondan ibarətdir ki, bu partiya onu yaratmaq istəyən, siyasi fəaliyyətlə məşğul olmaq istəyən adamların istəkləri ilə, bir təşkilati mərkəz olmadan, hərəsinin öz tərəfindən hərəkət etməsi nəticəsində, ağır şəraitdə, böyük təqiblər şəraitində yaranmış bir partiyadır."

1992-ci il noyabrın 21-də respublikanın müxtəlif bölgələrindən 550 nümayəndənin iştirakı ilə öz təsis konfransını məlum səbəblərdən Naxçıvanda keçirən Yeni Azərbaycan Partiyasının zaman-zaman sıralarının kəmiyyət və keyfiyyət baxımından günbəgün zənginləşməsi, uğurlar partiyası kimi nüfuz qazanması sözsüz ki, ulu öndər Heydər Əliyevin ideyalarına sədaqətin, möhtərəm Prezidentimiz İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasətə inamın göstəricisidir. Heydər Əliyev ideyaları Azərbacanın dünəninin, bu gününün və gələcəyinin əsasıdır. Bu ideyalar Azərbaycanın qarşısında yeni imkanlar, yeni üfüqlər açır. Partiyanın hər bir üzvü Heydər Əliyev ideyalarının təbliğinə, həyata keçirilməsinə öz töhfəsini verməyə səy göstərir. Dövlətimizin başçısı İlham Əliyevin partiyanın yaradılmasının 25 illiyinə həsr edilmiş təntənəli yubiley mərasimində səsləndirdiyi bu fikirləri xatırlatmaq istərdim: " Bu gün Azərbaycanda bizim partiyamıza rəqib ola biləcək hər hansı bir siyasi qüvvə mövcud deyil. Yeni Azərbaycan Partiyası, sözün əsl mənasında, ümumxalq partiyasına çevrilibdir. Cəmiyyətimizin bütün təbəqələri partiyamızda birləşib. Buna baxmayaraq, biz həmişə qabağa baxmalıyıq və əldə edilmiş uğurlarla kifayətlənməməliyik."

Ulu öndər Heydər Əliyevin xilaskarlıq missiyasının Azərbaycana qazandırdığı uğurları bir yazı çərçivəsində əhatə etmək qeyri-mümkündür. Reallıq budur ki, 1993-2003-cü illər Azərbaycan tarixinə dirçəliş, inkişaf, tərəqqi dövrü kimi daxil olub. Həmin illərdə qoyulan möhkəm təməl bu gün Azərbaycanın daha böyük zirvələri fəth etməsini şərtləndirir. Ulu öndər Heydər Əliyev Azərbaycanın dünya birliyinin layiqli üzvünə çevrilməsi istiqamətində göstərdiyi səylərin və əldə etdiyi uğurların nəticəsidir ki, hazırda ölkəmiz etibarlı tərəfdaş kimi qəbul olunur, ən əsası onun iştirakı olmadan regionda hansısa iqtisadi və siyasi layihənin həyata keçirilməsi mümkünsüzdür.

### Son 16 il: Yeniləşmə, təkmilləşmə dövrü

Qeyd etdiyimiz kimi, Yeni Azxərbaycan Partiyası artıq 27 ili arxada qoyur. 27 il zaman baxımından qısa görünsə də, dəyərləndirmə baxımından çox zəngindir. Son 16 ildə Heydər Əliyev siyasətini bütün istiqamətlərdə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi altında Yeni Azərbaycan Partiyası inkişaf edir, təkmilləşir, yeniləşir. Ulu öndər Heydər Əliyevin 1 oktyabr 2003-cü ildə Azərbaycan xalqına müraciətində ölkəmizin bu günü üçün gördüyü işlərə qısa nəzər salınaraq bildirilirdi: "Üzümü Sizə- həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm"."

Ardı Səh. 7

# Yeni Azərbaycan Partiyası Azərbaycanın müasir tarixində böyük fenomendir

Əvvəli-Səh - 6

Dövlətimizin başçısı İlham Əliyevin son 16 ildə həyata keçirdiyi təkmil islahatlar Azərbaycanın davamlı inkişafını təmin edir. Neft siyasətinin məntiqi davamı olaraq iqtisadiyyatın şaxələndirilməsi istiqamətində atılan addımların uğurlu nəticəsidir ki, bu gün ümumi daxili məhsulda özəl bölmənin payı 85 faiz təşkil edir. Cənab İlham Əliyev Prezident kimi fəaliyyətə başladığı ilk gündən iqtisadi artımın qeyri-neft sektorunun hesabına olmasını qarşıya mühüm vəzifə kimi qoydu, “neft kapitalını insan kapitalına çevirək” tezisini irəli sürdü. Bu günümüzün reallıqları bu məqsədin artıq gerçəklik olduğunu təsdiqləyir. Təbii ki, enerji sektorunda da uğurlarımız davamlıdır. Cənub Qaz Dəhlizinin rəsmi açılışı, onun əsas seqmentlərindən olan TANAP-ın istifadəyə verilməsi, “Yeni əsrin müqaviləsi”nin imzalanması və sair kimi biri-birindən əhəmiyyətli hadisələr Azərbaycanın dünyanın enerji təhlükəsizliyində yeri və rolunu möhkəmləndirir.

Dövlətimizin başçısı İlham Əliyev daim bu çağırışı edir ki, iqtisadi və siyasi islahatların vəhdətliyi qorunmalıdır. Demokratikləşmə prosesinin sadəcə bir şüar, niyyət olmadığını, Azərbaycanın hərtərəfli inkişafı üçün əsas olduğunu önə çəkən ölkə Prezidentinin insan hüquq və azadlıqlarının qorunması, azad mətbuatın inkişafı, siyasi partiyaların və ictimai birliklərin normal fəaliyyəti, seçkilərin demokratik, beynəlxalq standartlara uyğun keçirilməsi istiqamətində atdığı addımlar beynəlxalq səviyyədə təqdir edilir. Bu gün Azərbaycan ən islahatçı, demokratiya təcrübəsi nümunə olan ölkə, Azərbaycan xalqı dünyanın ən xoşbəxt xalqı kimi tanınır və nüfuz qazanır.

### İdarəçilik sistemində təkmilləşmə davamlı inkişafı şərtləndirir

Bir əsas məqamı da qeyd edək ki, 2016-cı ildə keçirilən ümumxalq səsverməsinə çıxarılan əlavə və dəyişikliklər arasında prezidentlik müddətinin 7 ilədək uzadılması, vitse-prezidentlik institutunun yaradılması kimi məsələlər əsas yer tutur. Dövlətimizin başçısı İlham Əliyevin Sərəncamı ilə Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin olunması uğurlarımızın davamlılığını şərtləndirən əsas amillərdəndir. Mehriban xanım Əliyeva təqdimat mərasimində bildirmişdir: “Gündəlik fəaliyyətimizdə insansevərlik, mərhəmət, qarşılıqlı hörmət, mehribançılıq unudulmamalıdır. Əksinə, məhz bu mənəvi dəyərləri uca tutaraq ən yüksək qələbələr əldə etmək, ən böyük zirvələrə qalxmaq olar.” Azərbaycanın Birinci vitse-prezidenti bu əminliyi də ifadə etmişdir ki, gələcək fəaliyyətimi məhz bu prinsiplər əsasında qurmağa çalışacağam: “Ölkəmizin və xalqımızın maraqlarını hər şeydən üstün tutacağam, Azərbaycana layiqincə xidmət etməyə çalışacağam.” Azərbaycanın Birinci vitse-prezidenti kimi Mehriban xanım Əliyevanın fəaliyyətinin əsasında sosial məsələlərin həlli dayanır. 2017-ci ildən ötən dövr ərzində Mehriban xanım Əliyevanın Azərbaycanın Birinci vitse-prezidenti kimi gördüyü işlərin miqyası olduqca genişdir və onlar ümumilikdə Azərbaycanın dövlətçiliyinin daha da möhkəmləndirilməsinə, əhalinin sosial rifahının yüksəlməsinə, insan hüquq və azadlıqlarının qorunmasına, Azərbaycan mədəniyyətinin, tarixinin, milli-mənəvi dəyərlərinin təbliğinə yönəlib. Təkcə bu faktı qeyd etmək kifayətdir ki, bu il ölkəmizin UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasına ev sahibliyi etməsində Mehriban xanım Əliyevanın xidmətləri böyükdür.

Cari ilin ilk ayından dövlətimizin başçısı İlham Əliyevin idarəetmə sistemində təkmilləşməyə xidmət edən Fərman və sərəncamlarına diqqət yetirmək kifayətdir. Ölkə Prezidentinin həyata keçirdiyi gəncləşmə siyasəti təqdir edilir. Gənclər ölkəsi olan ölkəmizdə onların potensial imkanlarından səmərəli istifadə olunması, idarəçilikdə irəli çəkilmələri bütün dövrlərdə öz aktuallığını qoruyub. Bu gün sıralarında 750 minə yaxın üzvü birləşdirən Yeni Azərbaycan Partiyasının təmsilçilərinin 40 faizini gənclər təşkil edir. Dövlətimizin başçısı İlham Əliyevin tapşırığına uyğun olaraq gənclərin parlamentdə və bələdiyyələrdə təmsilçilik faizlərinin artırılması istiqamətində atılan addımlar öz bəhrəsini verir. Belə ki, Yeni Azərbaycan Partiyası son parlament və bələdiyyə seçkilərində zəngin seçki təcrübəsinə əsaslanaraq gənclərin parlamentdə və bələdiyyələrdə təmsilçiliyini artırıb.

Müasir dövrün informasiya-kommunikasiya texnologiyaları əsri olduğunu nəzərə alsaq, müasir dünyagörüşə, zəngin biliyə, savada malik olan gənclərə böyük ehtiyacın olduğu qaçılmazdır. Bu gün bu uğurumuzu da böyük fəxr hissi ilə qeyd edirik ki, Azərbaycan kosmik klubun üzvüdür. Ölkəmiz 2022-ci ildə Beynəlxalq Astronavtika Konqresinə ev sahibliyi etmək hüququnu qazanıb.

### Qələbələr partiyası yeni hədəflərə doğru

Milyonların sevgisini qazanan Yeni Azərbaycan Partiyası tarixə qələbələr partiyası kimi də yazılıb. Ölkədə keçirilən bütün seçki proseslərində uğur qazanan Yeni Azərbaycan Partiyasına xalqın dəstəyi böyükdür. Təkcə Azərbaycanın demokratik inkişaf tarixinə yeni bir səhifəni əlavə edən 11 aprel 2018-ci il prezident seçkilərini yada salmaq kifayətdir. Cənab İlham Əliyevin son 16 ildə gördüyü işlər, hər vədini konkret əməli işdə təsdiqləməsi onun 2008, 2013 və 2018-ci prezident seçkilərində qələbəsini təmin etməsini şərtləndirib. 11 aprel 2018-ci il prezident seçkilərində seçicilərin 74 faizdən çox səsini qazanaraq növbəti 7 il üçün ölkəmizə rəhbərliyini təmin edən dövlətimizin başçısı İlham Əliyev andiçmə mərasimində bildirmişdir: “Son 15 il ərzində kifayət qədər uğurlar, nailiyyətlər var. Ancaq biz əldə edilmiş nailiyyətlərlə kifayətlənməməliyik. Biz gələcəyə baxmalıyıq və baxırıq. Növbəti illərdə görüləcək işlər haqqında bizim çox aydın təsəvvürümüz, planlarımız, proqramlarımız var. Biz qeyd etdiyim sahələr üzrə səylərimizi davam etdirəcəyik, Azərbaycanı daha da qüdrətli ölkəyə çevirəcəyik. Hər bir sahə üzrə bizim konkret proqramlarımız, planlarımız var. Həm beynəlxalq məsələlərlə, həm bölgələrimizin möhkəmləndirilməsi, siyasi-iqtisadi islahatların dərinləşməsi, sosial siyasət, ordu quruculuğu ilə bağlı bizim konkret proqramlarımız var. Güclü siyasi iradə, böyük maliyyə resurslarımız var. Biz bu maliyyə resurslarını öz əlimizlə yaratmışıq və biz indi öz hesabımıza yaşayırıq. Xalq-iqtidar birliyi var. Ona görə mən əminəm ki, bütün Azərbaycan xalqı və biz hamımız gələcəyə çox böyük nikbinliklə baxırıq. Hamımızın amalı ondan ibarətdir ki, ölkəmiz daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar.”

2018-ci il prezident seçkilərindən ötən bir ildən artıq dövrdə Azərbaycanın iqtisadi, siyasi, humanitar, xarici siyasət sahəsində qazandığı uğurlar göz önündədir. Bu gün Azərbaycan beynəlxalq əhəmiyyətli tədbirlər üçün ideal məkan kimi qəbul olunur. Ölkəmizin bu günlərdə BMT Baş Assambleyasından sonra dünya dövlətlərinin təmsil olunduğu ən böyük siyasi təsisat olan, 120 üzvü sıralarında birləşdirən Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşünə ev sahibliyi etməsi və sonda qəbul olunan sənəddə Azərbaycanın Dağlıq Qarabağla bağlı mövqeyinin dəstəklənməsi mühüm diplomatik uğurlarımız sırasındadır. Həmçinin dövlətimizin başçısı İlham Əliyevin Rusiyanın Soçi şəhərində dünyanın məşhur “beyin mərkəzləri”ndən biri olan “Valday” Beynəlxalq Diskussiya Klubunun “Şərq şəfəqləri və dünya siyasi quruluşu” mövzusunda XVI illik iclasında, MDB Dövlət Başçıları Şurasının Aşqabad sammitində çıxışı Ermənistana və onun havadarlarına ciddi mesaj olmaqla yanaşı, Azərbaycanın böyük diplomatik uğuru kimi dəyərləndirildi. “Qarabağ Azərbaycandır və nida işarəsi” bəyanatı dövlətimizin dəyişməz mövqeyinin bir daha dünyaya təqdimatı oldu. Bu kimi önəmli tədbirlərin davamı olaraq Azərbaycanın Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşünə ev sahibliyi və bütün türk dünyasına birlik, həmrəylik mesajının Azərbaycandan ünvanlanması ölkəmizin regionda və dünyada artan nüfuzuna bir daha işıq saldı.

Bu gün Azərbaycan dünyada tolerant, multikultural dəyərlərin inkişafına böyük töhfələr verən ölkə kimi tanınır. 2016-cı ilin ölkəmizdə “Multikulturalizm İli”, 2017-ci ilin “İslam Həmrəyliyi İli” elan edilməsi multikulturalizmin dövlət siyasətinin əsası olduğunu bir daha təsdiqlədi.

Ulu öndər Heydər Əliyevin siyasi kursunu bütün istiqamətlərdə uğurla davam etdirən Prezident İlham Əliyevin təkmil islahatları, gələcəyə hesablanmış inkişaf strategiyası Azərbaycana daha böyük uğurlar qazandıracaq.

Ölkəmiz bu il növbəti bələdiyyə seçkiləri ərəfəsindədir. Hər bir seçki prosesindən uğurla çıxan Yeni Azərbaycan Partiyasının bu seçkilərdə də qələbə qazanacağı şəksizdir. Seçki kampaniyasının hər bir mərhələsini demokratik prinsiplərin, seçki qanunvericiliyinin tələblərinə uyğun həyata keçirən Yeni Azərbaycan Partiyasının hər bir üzvü xüsusi fəallıq nümayiş etdirir, “Xalqa xidmət” devizi altında seçki kampaniyasını uğurla başa çatdıracaqlarına əmindirlər. Bu əminliyə əsas verən partiyanın zəngin seçki təcrübəsi, ən əsası ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin gördüyü işlər, həyata keçirdiyi siyasətin nəticəsində əldə olunan uğurlardır.

Ümumiləşdirilmiş şəkildə qeyd etsək, ulu öndər Heydər Əliyevin bildirdiyi kimi, Yeni Azərbaycan Partiyasına xidmət etmək xalqa, dövlətə xidmət etmək deməkdir. Ulu öndər Heydər Əliyevin Azərbaycanın müstəqillik tarixində qoyduğu izlər, gördüyü işlər, Azərbaycanın ən yüksək zirvələri fəth etməsi üçün yaratdığı möhkəm təməl bundan sonra da ölkəmizə davamlı uğurlar qazandıracaq. Möhtərəm Prezidentimiz İlham Əliyev bildirir: “Yeni Azərbaycan Partiyası Azərbaycanın müasir tarixində böyük fenomendir. Nəinki Azərbaycanda, qonşu ölkələrdə də Yeni Azərbaycan Partiyası kimi güclü, mütəşəkkil qüvvə yoxdur.”

Təbii ki, ölkəmizin ictimai-siyasi həyatında aparıcı rol oynayan, sözlə əməl birliyini, monolitliyini qoruyan Yeni Azərbaycan Partiyasının 27 ildə əldə etdiyi uğurları bir yazı çərçivəsində əhatə etmək qeyri-mümkündür. 27 illik yolu dövlətimizin başçısı İlham Əliyevin partiyanın yaradılmasının 25 illiyinə həsr olunan təntənəli yubiley mərasimində söylədiyi bu fikirlərlə ümumiləşdirmək istərdim: “ Bizim əldə edilmiş bütün uğurlarımızda Yeni Azərbaycan Partiyasının, onun üzvlərinin böyük əməyi, zəhməti, rolu var. Bu gün partiyamız ölkəmizin aparıcı siyasi qüvvəsi kimi bu böyük məsuliyyəti hiss edir, onu öz üzərinə götürür. Partiyamızın üzvləri müxtəlif sahələrdə ölkəmizin ümumi inkişafına çox böyük töhfələr verirlər. Bu gün Yeni Azərbaycan Partiyası dünya miqyasında çox böyük və güclü partiyadır. Bizim beynəlxalq əlaqələrimiz də genişlənir. Beləliklə, məndə partiyamızın gələcək inkişafı ilə bağlı çox nikbin fikirlər var.”

*Ümumiləşdirilmiş şəkildə qeyd etsək, ulu öndər Heydər Əliyevin bildirdiyi kimi, Yeni Azərbaycan Partiyasına xidmət etmək xalqa, dövlətə xidmət etmək deməkdir. Ulu öndər Heydər Əliyevin Azərbaycanın müstəqillik tarixində qoyduğu izlər, gördüyü işlər, Azərbaycanın ən yüksək zirvələri fəth etməsi üçün yaratdığı möhkəm təməl bundan sonra da ölkəmizə davamlı uğurlar qazandıracaq. Möhtərəm Prezidentimiz İlham Əliyev bildirir: “Yeni Azərbaycan Partiyası Azərbaycanın müasir tarixində böyük fenomendir. Nəinki Azərbaycanda, qonşu ölkələrdə də Yeni Azərbaycan Partiyası kimi güclü, mütəşəkkil qüvvə yoxdur.”*

# Yeni Azərbaycan Partiyası monolit siyasi qüvvədir

## YAP İdarə Heyətinin üzvü, Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimovun yap.org.az-a müsahibəsi



***- Eldar müəllim, Yeni Azərbaycan Partiyasının yaradılmasının 27 ili tamam olur. Partiyamızın yaradılması ərəfəsində ölkəmizdə baş verən prosesləri necə xatırlayırsınız?***

- Bu günlərdə 27 illiyini böyük təntənə ilə qeyd edəcəyimiz Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olan Yeni Azərbaycan Partiyası ölkə qarşısında duran problemləri həll etməyə qadir, siyasi həyatda özünü təsdiqləmiş monolit bir siyasi qüvvədir. Partiya hər bir qərarında Heydər Əliyev ideyalarına, Onun milli məfkurəsinə əsaslanaraq dövlətin, xalqın maraqları zəminində öz fəaliyyətini qurub.

Partiyanın keçdiyi şərəfli yola nəzər saldıqda görürük ki, bu yol heç də həmişə hamar olmamışdır. Belə ki, müstəqilliyimizin ilk illərində ölkənin siyasi həyatı iflic vəziyyətdə idi. Ərazilərimizin dalbadal işğalı, dərin iqtisadi-siyasi böhran, əhalinin ağır sosial durumu vətənpərvər insanları Azərbaycanın gələcəyi ilə bağlı ciddi düşünməyə vadar edirdi. Bu dövrdə - 1990-cı illərin əvvəllərində Azərbaycanda 30-a qədər siyasi partiya, ictimai təşkilat və hərəkat fəaliyyət göstərirdi. Ancaq onlar kifayət qədər sosial bazaya malik deyildirlər, aralarında konstruktiv münasibət yox idi. Xalqın bütün zümrələrini səfərbər edəcək yeni bir partiyaya ehtiyac duyulurdu. Elə bir partiyaya ki, xalq onun liderinə inanıb, arxasınca getsin.

Ölkə ziyalıları xalqın düçar olduğu bəlalardan qurtuluşunu Ulu Öndər Heydər Əliyevin böyük siyasətə qayıdışında görürdülər. İctimai-siyasi həyatda xaos və anarxiyadan cana doymuş insanlar Heydər Əliyevin hakimiyyətə gəlişini əngəlləmək üçün Konstitusiyaya daxil edilmiş qondarma yaş senzinin ləğvini tələb edir, bu məqsədlə respublikanın müxtəlif bölgələrində mitinqlər keçirirdilər. Bütün ölkə vətəndaşları nəzərlərini Naxçıvana dikmişdilər. Hamı Heydər Əliyevin siyasi rəhbərliyə yenidən qayıdışını arzulayırdı.

Belə bir vaxtda cəmiyyətin demokratik qüvvələri, ziyalılar və sadə əmək adamları Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı yeni bir siyasi partiyanın yaradılmasını günün tələbi hesab edirdilər. 1992-ci il oktyabrın 16-da 91 nəfər tanınmış ziyalı "Səs" qəzeti vasitəsilə Ulu Öndərə "Azərbaycan Sizin sözünüzü gözləyir", - deyə müraciət etdi.

Bu tarixi müraciətdə ölkədəki ağır siyasi, sosial-iqtisadi, mənəvi durumun getdikcə dərinləşməsi, təbii sərvətlərin talan edilməsi və digər həyati məsələlər ziyalı yanğısı ilə önə çəkilir, vəziyyətdən xilas üçün xalqın Heydər Əliyevin başçılığı ilə Yeni Azərbaycan Partiyasında təşkilatlanmaq arzusu ifadə olunurdu. Ölkənin gələcəyini düşünən insanlar yeni partiya yaratmaq təşəbbüsü ilə çıxış edir, xalqın sınanmış lideri Heydər Əliyevin bu məsələdə məsuliyyəti Öz üzərinə götürməsini istəyirdilər.

Bu müraciət "Səs" qəzetində dərc edildikdən sonra bütün Azərbaycan xalqı böyük ümidlə öz böyük oğlu Heydər Əliyevdən cavab gözləyirdi. Görkəmli dövlət xadimi Azərbaycan ziyalılarının müraciətinə oktyabrın 24-də "Yeni, müstəqil Azərbaycan uğrunda!" çağırışı ilə başlayan cavab verdi. Ulu Öndər cavab məktubunda Azərbaycanın bütövlüyünün təhlükə qarşısında olması, ölkədə hökm sürən hərc-mərclik, vətəndaş qarşıdurması, insanların yaşayış səviyyəsinin dözülməzliyi ilə bağlı ziyalıların narahatlığını bölüşərək yaranmış vəziyyəti təhlil etdi, AXC-"Müsavat" hakimiyyətinin əsl mahiyyətini, vəziyyətdən çıxış yollarını göstərdi. Məktubda vurğulanırdı ki, ölkə qarşısında duran vəzifələr - müstəqil dövlətin qurulması, milli-demokratik dövlət atributlarının formalaşdırılması, Azərbaycanın suverenliyinin, təhlükəsizliyinin və ərazi bütövlüyünün qorunması, vətəndaşların dinc, firavan həyat səviyyəsinin təmin edilməsi, iqtisadi böhranın aradan qaldırılması və sair taleyüklü məsələlərdir.

Heydər Əliyevin ətrafında sağlam qüvvələrin birləşmək niyyətindən təşvişə düşən o dövrkü iqtidar oktyabrın 24-də Naxçıvanda dövlət çevrilişinə cəhd göstərdi. Xalq Cəbhəsinə məxsus silahlı dəstələr Muxtar Respublika Daxili İşlər Nazirliyinin, Televiziya və Radio Verilişləri Komitəsinin, Rabitə İdarəsinin, şəhər elektrik şəbəkəsinin binalarını zəbt edib Muxtar Respublika hakimiyyəti əleyhinə bəyanat verdilər. Lakin Heydər Əliyevi sevən insanlar ayağa qalxıb, hamı bir nəfər kimi Onu müdafiə etdi. Hətta Nehrəm, Cəhri kəndlərindən adamlar piyada Naxçıvan şəhərinə yürüş etdilər. Qısa bir vaxtda 50 mindən çox adam Heydər Əliyevi müdafiə etmək üçün Ali Məclis binasının qarşısına gəldi. Xalq Cəbhəsinin silahlıları parlament binasına hücum etməkdən çəkindilər. Bakıda hazırlanmış xüsusi dəstə Naxçıvana gəlməyə cəsarət etmədi. Əhali silahlı dəstələri dövlət idarələrindən qovub çıxardı.

Bu hadisə əsl dövlət çevrilişinə cəhd idi. Lakin xalq öz böyük oğlunu qorudu. Sonralar, 1994-cü ilin oktyabrında və 1995-ci ilin martında Ulu Öndərə qarşı silahlı müxalifət tərəfindən belə uğursuz cəhdlər olacaqdı. Ancaq xalq yenə də öz müdrik rəhbəri ilə birlikdə olduğunu nümayiş etdirəcəkdi.

Heydər Əliyevin yeni partiyanın yaradılması ilə bağlı ziyalıların müraciətinə verdiyi müsbət cavab Onun böyük məsuliyyəti Öz üzərinə götürməkdən çəkinməyən, cəsarətli və qətiyyətli lider olduğunu bir daha təsdiqlədi. Ulu Öndərin o zamankı mürəkkəb durum və yaranmış təhlükəli vəziyyətdən çıxış yolunu göstərən, Onun müdrik tövsiyələrini əks etdirən cavab məktubu sonralar YAP-ın fəaliyyətinin əsas prinsip və istiqamətlərini təşkil etdi.

O dövrkü iqtidar - AXC-"Müsavat" hakimiyyəti Yeni Azərbaycan Partiyasının təsis konfransının Bakıda keçirilməsinə imkan vermədi. Konfrans 1992-ci il noyabrın 21-də Naxçıvanda keçirildi. Təşəbbüs qruplarının 550-dən çox nümayəndəsinin iştirak etdiyi konfrans YAP-ın təsis olunması haqqında qərar qəbul etdi. Partiyanın Heydər Əliyev tərəfindən hazırlanmış Proqram və Nizamnaməsi müzakirə olunaraq qəbul edildi. Ulu Öndər yekdilliklə partiyanın Sədri seçildi. Təşkilatın rəhbər orqanları formalaşdırıldı. Heydər Əliyev sonralar həmin günü belə xatırlayırdı: "Biz 1992-ci ilin şaxtalı bir günündə, istilik olmayan bir zalda, Naxçıvan Dövlət Dram Teatrının binasında paltoda və çoxları papaqda oturaraq ilk konfransımızı keçirirdik. Üşüyürdük, əlimizi əlimizə sürtürdük. Amma iradəmiz yüksək idi, iradəmiz güclü idi. Gələcəyə çox nikbinliklə baxırdıq... Məni sevindirən odur ki, ağır şəraitdə Naxçıvanda keçirdiyimiz konfrans ölkənin və partiyanın böyük inkişaf yolunu təmin etdi".

***- Yeni Azərbaycan Partiyasının yaradılması Azərbaycan dövlətinin və xalqının həyatında nə kimi rol oynadı?***

- Son dərəcə mürəkkəb bir şəraitdə meydana çıxan Yeni Azərbaycan Partiyası xalqımızın taleyində yeni mərhələnin başlanğıcı oldu. Güclü sosial bazası, praqmatik və gerçəkliyə əsaslanan bitkin proqramı, Heydər Əliyev kimi böyük lideri olan partiyanın ölkənin siyasi həyatına qədəm qoyması XX əsr Azərbaycan tarixinin mühüm hadisəsi idi.

Yeni yaranmış partiyanın bəyanatında bildirilirdi ki, bu partiyanın başlıca proqram məqsədi dövlət müstəqilliyinin möhkəmləndirilməsi, ərazi bütövlüyü, sivil, demokratik hüquqi dövlət, möhkəm əmin-amanlıq və ictimai həmrəylik, sabit və sosial yönümlü iqtisadiyyat yaratmaqdan, geniş demokratik islahatlar həyata keçirmək uğrunda mübarizə aparmaqdan ibarətdir.

Müxalifət partiyası kimi yaranmasına baxmayaraq, YAP öz fəaliyyətində milli maraqları hər şeydən üstün tuturdu. Bu barədə ölkə Prezidenti İlham Əliyev partiyanın 20 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə belə demişdi: "Yeni Azərbaycan Partiyası müxalifət partiyası kimi yaradılmışdı. Ancaq özünü müxalifət adlandıran indiki qüvvələrdən fərqli olaraq heç vaxt öz dövlətinə, xalqına müxalifətdə olmamışdır... Yeni Azərbaycan Partiyasının yaradılması Azərbaycanda, əslində, siyasi sistemin yaradılması demək idi. Çünki o vaxta qədər bizdə siyasi sistem mövcud deyildi. Yeni Azərbaycan Partiyasının siyasi mədəniyyəti, siyasi mübarizə qaydalarının təbliği, ümumiyyətlə, siyasətin sivil yollarla aparılması ideyaları da cəmiyyətdə böyük əks-səda yaratdı və cəmiyyət tərəfindən dərhal dəstəkləndi. Biz bu ideyalara bu gün də sadiqik".

Ümummilli Liderimiz Heydər Əliyevin rəhbərliyi ilə həyata vəsiqə alan Yeni Azərbaycan Partiyası tezliklə təşkilatlandı. Ulu Öndərin adı ilə bağlı olan bu partiya yarandığı gündən azərbaycançılıq və dövlətçilik mövqeyindən çıxış edərək öz siyasi platforması, qətiyyətli mövqeyi sayəsində çox qısa zamanda vətənpərvər insanların siyasi istinadgahı kimi əsl ümumxalq partiyasına çevrildi.

1993-cü ilin iyun ayında Heydər Əliyevin ölkə rəhbərliyinə yenidən qayıdışı ilə Yeni Azərbaycan Partiyası müxalifət partiyasından iqtidar partiyasına çevrildi. Ölkənin hakim partiyası kimi YAP müstəqillik tariximizdə mühüm rol oynadı. Ulu Öndərin milli məfkurəsindən güc alan bu partiya qısa zamanda ölkədə sabitliyi bərqərar edən, demokratik dəyərlərə üstünlük verən, hüquqi, demokratik, dünyəvi dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesinə layiqli töhfələr verən real siyasi qüvvə kimi özünü təsdiq etdi.

Bu gün ölkənin siyasi həyatında Yeni Azərbaycan Partiyası qədər geniş sosial bazaya malik, siyasi proseslərə həlledici təsir imkanı olan ikinci bir partiya yoxdur. Ölkə Prezidenti, partiyamızın Sədri İlham Əliyev bildirib: "Yeni Azərbaycan Partiyasının gücü ilk növbədə onun əvəzsiz lideri Heydər Əliyevdir. Yeni Azərbaycan Partiyasının gücü bundadır ki, onun təməlində duran prinsiplər əməli surətdə həyata keçirilir. Yeni Azərbaycan Partiyasının gücü ondan ibarətdir ki, Yeni Azərbaycan Partiyası liderinin daxili və xarici siyasətini xalq bəyənir və dəstəkləyir".

YAP Heydər Əliyevin müəyyənləşdirdiyi siyasət əsasında dövlət müstəqilliyimizin dönməzliyinin, əbədiliyinin və sarsılmazlığının təsbit olunması ilə müşayiət edilən şərəfli bir tarixə malikdir. Partiyanın təsis konfransında qəbul etdiyi Proqram və Nizamnaməsi 1999-cu il dekabr ayının 20-21-də keçirilən I qurultayında geniş müzakirə olunaraq o dövrkü siyasi reallıqlara uyğun müəyyən əlavə və dəyişikliklər edilməklə təsdiq olundu. Təşkilatın strateji xətti təsbit edildi: dövlət müstəqilliyinin qorunması və möhkəmləndirilməsi, Azərbaycanın beynəlxalq aləmdə layiqli yer tutması, ölkədə demokratik, hüquqi dövlət quruculuğu. Qurultayda o vaxt ARDNŞ-nin birinci vitse-prezidenti olan cənab İlham Əliyev partiyanın Sədr müavini seçildi.

Ötən illər ərzində partiya sıralarında siyasətçilərin yeni nəsli yetişdi. 2000-ci il parlament seçkilərində cənab İlham Əliyev YAP seçki kampaniyasına rəhbərlik edirdi və noyabr ayında Milli Məclisə keçirilən seçkilərdə partiya böyük uğur qazanaraq parlamentdə böyük üstünlük əldə etdi.

YAP-ın 2001-ci il noyabrın 21-də keçirilən II qurultayında təşkilat üçün taleyüklü qərarlar qəbul edildi. Partiyanın Nizamnaməsinə dəyişikliklər edildi və yeni təsis olunmuş Sədrin birinci müavini vəzifəsinə yekdilliklə cənab İlham Əliyev seçildi.

***- Bu gün Yeni Azərbay-***

***can Partiyası yeni inkişaf mərhələsini yaşayır. Əldə olunan nəticələr, uğurlar barədə fikirlərinizi bilmək istərdik...***

- Ulu Öndərin və Onun yaradıcısı olduğu partiyanın ən böyük nailiyyətlərindən biri də siyasi varislik probleminin uğurla həll edilməsi, Azərbaycanın işıqlı gələcəyinə təminat yaradılması oldu. Böyük dövlət xadimi Heydər Əliyevin 2003-cü ilin oktyabrında, prezident seçkiləri ərəfəsində Azərbaycan xalqına müraciətində deyilirdi: "Mənim hələ tamamlanmamış çox perspektivli planlarım var. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcəkdir... Həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın layiqli övladlarını öz ətrafında birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəkdir".

2003-cü il oktyabrın 15-də keçirilən prezident seçkilərində YAP Sədrinin birinci müavini cənab İlham Əliyev xalqın böyük etimadını qazanaraq ölkə Prezidenti seçildi və partiyanın siyasi taleyində yeni dövr başladı. Partiyanın 2005-ci il martın 26-da keçirilmiş III qurultayında Prezident İlham Əliyevin yekdilliklə Yeni Azərbaycan Partiyasının Sədri seçilməsi təşkilatda siyasi irs-varislik əlaqələrini təmin etməklə yanaşı, dünyada gedən qloballaşma prosesləri fonunda ölkənin hərtərəfli inkişafı üçün geniş imkanlar açdı.

Sonralar 2008-ci və 2013-cü illərdəki prezident seçkilərində də YAP-dan İlham Əliyevin namizədliyi irəli sürüldü. Bu seçkilərdə YAP-ın prezidentliyə namizədi parlaq qələbə qazanaraq respublikanın davamlı və sürətli yüksəlişi naminə əzmkar fəaliyyətini davam etdirmək imkanı əldə etdi.

Partiya ölkə həyatında baş verən prosesləri diqqətlə izləyir. Lazım gəldikdə cəmiyyətdəki dəyişikliklərə öz münasibətini bildirir. Yeni Azərbaycan Partiyasının 2008-ci il dekabrın 16-da Azərbaycan Respublikası Konstitusiyasına əlavə və dəyişikliklər edilməsi ilə bağlı Milli Məclisdə təşəbbüs irəli sürməsi də obyektiv qanunauyğunluqlarla şərtlənirdi. Həmin il martın 18-də keçirilmiş referendumda seçicilərin mütləq əksəriyyəti YAP-ın təşəbbüsünü dəstəklədi. Partiya 2010-cu və 2015-ci illərdə Milli Məclisə keçirilən seçkilərdə parlaq qələbə qazanaraq cəmiyyətdə böyük nüfuz sahibi olduğunu bir daha təsdiqlədi. Ötən il keçirilmiş prezident seçkilərində də partiyamızın Sədri cənab İlham Əliyev parlaq qələbə qazandı.

Ötən 27 il ərzində YAP parlament tipli partiya kimi ölkədə aparılan islahatların və demokratik dəyişikliklərin hüquqi bazasının yaradılması işinə öz layiqli töhfəsini vermişdir. Partiya məfkurəsinin əsasını təşkil edən müstəqil dövlətçilik, qanunçuluq, azərbaycançılıq, yaradıcı təkamül, vətəndaş həmrəyliyi və sosial ədalət prinsipləri mahiyyətcə Azərbaycanın siyasi gələcəyinin ideya bazasının tərkib hissəsinə çevrilmişdir.

YAP bu gün cəmiyyətdə bütün proseslərin mərkəzində dayanan çox ciddi siyasi güc kimi qavranılır. Partiyanın iqtidarda olduğu dövrünün ən parlaq uğurlarından biri müstəqil Azərbaycanın davamlı və sabit tərəqqi yoluna çıxarılması, onun milli iqtisadi inkişaf modelinin formalaşdırılmasıdır.

Partiyanın Sədri, Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Yeni Azərbaycan Partiyası regionun ən böyük siyasi qüvvəsidir: "Yarandıqdan bu günə qədər partiyamız çox böyük, şərəfli və uğurlu yol keçmişdir. Partiyamızın xarici əlaqələri çox genişdir və bu əlaqələr gündən-günə genişlənir. Ölkə daxilində mövqelər çox möhkəmdir. Partiyamız, demək olar ki, cəmiyyətimizin bütün təbəqələrini, bütün yaş qruplarını birləşdirir. Yeni Azərbaycan Partiyası, sözün əsl mənasında, ümumxalq partiyasıdır. Əminəm ki, növbəti illərdə də partiyamız liderlik qabiliyyətini özündə saxlayacaqdır".

YAP milli dəyərlərə söykənərək inkişaf edir. Ona görə də hazırda YAP Azərbaycanın ən böyük siyasi təşkilatı olmaqla bərabər, həm də öz xalqına ən yaxın siyasi təşkilatdır. YAP bu gün təkcə Azərbaycanda deyil, ölkəmizin hüdudlarından çox-çox uzaqlarda qəbul olunan nüfuzlu siyasi güc mərkəzidir. Bu gün Azərbaycanın möhtəşəm inkişafı prosesində partiyamızın üzvləri yaxından iştirak edirlər. YAP-ın zəfərlər partiyası kimi nüfuz qazanmasını şərtləndirən əsas amil həmişə xalqın böyük əksəriyyətinin dəstəyini qazanmasıdır. Hazırda partiyamızın üzvlərinin 750 min nəfərə yaxın olması da bu faktı təsdiqləyir.

***- Eldar müəllim, dekabrın 23-də ölkəmizdə bələdiyyə seçkiləri keçiriləcək. Yeni Azərbaycan Partiyasının bu seçkilərdə şansını necə dəyərləndirirsiniz?***

- Yeni Azərbaycan Partiyası qələbələr partiyasıdır. Bu reallığı ötən illərin təcrübəsi də əyani şəkildə təsdiqləyir. Hazırda da partiyamız bələdiyyə seçkiləri kampaniyasında fəal iştirak edir. Bildiyiniz kimi, partiyamız tərəfindən yerli özünüidarəetmə orqanlarına namizədlər irəli sürülüb və namizədlərin qeydiyyata alınması prosesi davam edir.

Bu seçkilərdə də YAP tərəfindən laqyiqli namizədlər irəli sürülüb. Xüsusilə qeyd edim ki, bu prosesdə gənclərə və qadınlara da üstünlük verilib. Təqdirəlayiq haldır ki, gənclərin və qadınların yerli özünüidarəetmə orqanlarında təmsilçiliyi artır.

Bir sözlə, hesab edirəm ki, partiyamız qarşıdan gələn bələdiyyə seçkilərində xalqın güclü dəstəyi nəticəsində parlaq qələbə qazanacaq. Və YAP üzvləri növbəti beş il ərzində də bələdiyyələrin inkişafında və yerli məsələlərin həllində fəal iştirak edəcəklər.

# Rasim Quliyev: "YAP tarixi zərurət, sosial sifariş əsasında yaranıb"

***"Yeni Azərbaycan Partiyası (YAP) tarixi zərurət, sosial sifariş əsasında yaranmış, xalqın şəxsiyyət ətrafında toplaşmış insanların ideya birliyi idi". Bu fikirləri SİA-ya açıqlamasında Yeni Azərbaycan Partiyasının funksioneri, siyasi ekspert Rasim Quliyev deyib.***



YAP-ın yaranma zərurətinə tarixi nəzər salan ekspert xatırladıb ki, xalq Sovet İmperiyasında mövcud ayrı-seçkilik münasibəti, ermənilərin azərbaycanlılara qarşı açıq deportasiyasına etiraz olaraq ilk dəfə 1988-ci ilin noyabrın 17-dən başlayaraq kütləvi şəkildə mübarizəyə qalxdı: "O zamana qədər Sovet İmperyasında xalqın belə açıq şəkildə mübarizəsi çox nadir halda, bəzi respublikalarda epizodik şəkildə baş vermişdi. Ancaq Azərbaycan xalqı kütləvi mübarizəyə qalxaraq, dekabrın 4-dən 5-nə keçən gecə sovet əsgərlərinin dəyənəyinin zərbələrini yedi. Həmin dövrdə həm mənəvi, həm də psixoloji şəkildə öz dövlətində - Sovet İmperiyasının dəyənəyini yedikdən sonra xalq özünün liderini, güvənəcəyi şəxsi mübarizə meydanında görmədi və xalq hərəkatının böyük dalğası 1989-cu ilin sonunda yenidən gücləndi. Həmin ilin dekabrın sonunda Sovet sərhədlərinin sökülməsi ilə vüsət alan xalq hərəkatı dekabrın 31-də yenidən həmrəylik göstərərək böyük izdihamla mübarizəyə qalxdı. 1990-cı ilin yanvarın 20-sində isə xalqımız artıq imperiyanın dəyənək zərbəsini deyil, açıq qətliam zərbəsini aldı. Məhz bundan sonra Azərbaycan xalqı özünün liderini axtarmağa başladı. Xalq mənəvi şəkildə özünün gücsüz, başsız olduğunu bir daha dərk etdi".

R.Quliyev söyləyib ki, həmin dövrdə istər Azərbaycanda meydan hərəkatında, istərsə də sonrakı dövrlərdə xalqın tribunasında çıxış etmək istəyən həqiqi ziyalılarla yanaşı, populist mikrafon həvəskarları da var idi: "Lakin onların heç biri həqiqi liderə çevrilə bilmirdilər. Çünki, xalq onları lider kimi görmürdü. Xalq 1990-cı ildə öz dəsti-xəttinə, öz idarəçiliyinə, əqidəsinə, intellektinə bələd olduğu, tanıdığı Ulu Öndər Heydər Əliyevə yenidən üz tutdu. Həmin dövrlərdə yaranan Yeni Azərbaycan Partiyasının ideoloji təbliğatını aparmaq imkanı yox idi. Xalq yalnız öz Liderini tanıyırdı, Heydər Əliyevi və Onun ətrafında toplaşan insanları qəbul edirdi. Bununla da şəxsiyyət ətrafında cəmləşən insanların ideya birliyi - öz partiyası yarandı. Bu partiya həmin dövrdə sözsüz ki, cəmiyyətin idarə olunmasında bir təşkilat rolunu oynamaq məqsədi daşıyırdı və həmin məqsədə nail oldu".

Partiya funksioneri qeyd edib ki, sosial sifarişlə, müxalifət partiyası kimi yaranan YAP-ı daha sonra xalq iqtidarda görmək istədi və nəticədə xalqın dəstəyi ilə partiya iqtidara gəldi: "YAP Ulu Öndər Heydər Əliyevin hakimiyyətdə olduğu dövrdə Azərbaycanın idarə olunmasında çox böyük, müstəsna siyasi məktəb rolunu oynadı. YAP yarandığı dövrdə Sovet İttifaqı hüdudları çərçivəsində yeganə Kommunist Partiyası idisə, daha sonra Azərbaycanda ən böyük sosial bazası, funksional strukturu olan ən ciddi partiya məhz YAP oldu. Partiya hazırkı müasir inkişaf dövründə yeniləşərək, dünyanın tələblərinə uyğun, beynəlxalq münasibətlər sisteminə inteqrasiya edərək regionda ən ciddi, dayanıqlı, struktura malik olmaqla yanaşı, özünün ideoloji, taktiki yolu və xətti müəyyən olunan, sabit, inkişafda olan mütərəqqi partiyadır. Əhalinin say nisbəti ilə götürsək böyüklüyünə görə bəlkə də Avropada YAP-la rəqabət apara biləcək az sayda partiya tapmaq mümkündür. Bu gün böyük xalq izdihamlarının dəstəklədiyi partiya böyük siyasi tədbirlər yüksək səviyyədə təşkil etməklə yanaşı, özünü ən müasir intellektual dəyərlər, modern texnoloji vasitələrlə ifadə edə bilir. Mən bu gün YAP-ı regionda ən böyük, güclü, intellektual səviyyəsi yüksək olan partiya kimi dəyərləndirirəm. Qonşu dövlətlərdə də hazırda YAP-la həm texniki, həm ideya, həm təşkilatçılıq, həm struktura, həm də funksionallıq baxımından rəqabət apara biləcək ikinci partiya görmürəm. Bu gün artıq cəmiyyətdə, Azərbaycan dövlətində çox ciddi siyasi rəqabət var. YAP cəmiyyət, xalq izdihamı arasında öz möhürünü vurub, nüfuzunu layiq olduğu yerdə tutub".

# Səfir: AZƏRTAC və Hindistanın xəbər agentlikləri arasında əlaqələrin genişlənməsini dəstəkləməyə hazırıq

***AZƏRTAC və Hindistanın informasiya agentlikləri arasında əməkdaşlıq məsələləri müzakirə edilib. İki ölkənin aparıcı xəbər agentliklərinin əlaqələrinin genişləndirilməsi AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanovun Hindistanın Azərbaycandakı səfiri Bavitlunq Vanalvavan ilə görüşündə nəzərdən keçirilib.***



Görüşdə AZƏRTAC ilə Hindistan səfirliyinin işgüzar münasibətlərindən məmnunluq ifadə edilib. Qeyd olunub ki, iki ölkənin müxtəlif sahələrdə sıx əlaqələri fonunda onların əsas informasiya təchizatçılarının da əməkdaşlığı önəmlidir. Həm AZƏRTAC, həm də Hindistanın iki xəbər agentliyi - PTİ və ANİ Asiya və Sakit Okean İnformasiya Agentlikləri Təşkilatının (OANA) üzvüdür. Təşkilat çərçivəsində bu agentliklərin müəyyən əlaqələri olsa da, onların rəsmi tərəfdaşlıq səviyyəsinə qaldırılmasına ehtiyac duyulur. Hindistan səfiri bu istiqamətdə lazımi dəstək göstərməyə hazır olduqlarını bildirib.

Görüşdə AZƏRTAC ilə səfirliyin birgə layihələr həyata keçirməsi, agentliyin jurnalistlərinin Hindistanda təlimlərdə iştirakı, həmçinin müasir medianın inkişafı meylləri ilə bağlı fikir mübadiləsi aparılıb.

# Vüqar Rəhimzadə: “Yeni Azərbaycan Partiyasının yaradılması Azərbaycanın müstəqillik tarixinin mühüm səhifəsidir”

***27 illiyini qeyd etdiyimiz Yeni Azərbaycan Partiyasının yaranma zərurəti illər keçdikcə daha aydın görünür. Yeni Azərbaycan Partiyasının yaradılması ilə bağlı xalqın böyük əksəriyyətinin istəyini ifadə edən 91 nəfər ziyalının ulu öndər Heydər Əliyevə ünvanladığı “Azərbaycan Sizin sözünüzü gözləyir” müraciətində partiyanın yaranma zərurəti, xalqın istəyi geniş şəkildə öz əksini tapıb. “91-lər”dən biri kimi həmin dövrün hadisələrinin bələdçisiyəm. Həmin müraciətdə də qeyd olunduğu kimi, o çətin günlərdə məsuliyyətli işi öz üzərinə götürməyə qadir yeganə şəxs ulu öndər Heydər Əliyev idi. Dahi şəxsiyyət Heydər Əliyevin müraciətə “Yeni, müstəqil Azərbaycan uğrunda” cavabından onun Azərbaycanın müstəqilliyi üçün yaranan təhlükələrdən narahatlığı daha aydın görünürdü. Ümummilli Lider bildirmişdir ki, Azərbaycanın dövlət müstəqilliyi bütün Azərbaycan xalqının milli sərvətidir və heç cür yol verməmək olmaz ki, bu, ayrı-ayrı siyasi partiyaların, qurumların, şəxslərin müstəsna səlahiyyətinə, monopoliyasına çevrilsin.***



Bu fikirləri YAP Siyasi Şurasının üzvü, “İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə Yeni Azərbaycan Partiyasının yaradılmasının 27 illiyi ilə bağlı AZƏRTAC-a açıqlamasında bildirib.

V.Rəhimzadə qeyd edib ki, 1992-ci il 21 noyabrda təsis konfransını respublikanın bütün bölgələrindən 550 nümayəndənin iştirakı ilə Naxçıvanda keçirən Yeni Azərbaycan Partiyası çox qısa zamanda ümumxalq partiyasına çevrildi, ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə biri-birindən mühüm uğurlara imza atdı. Ən önəmlisi, bu günümüz üçün zəruri olan uğuru yaranmasından 7 ay sonra iqtidar partiyasına çevrilməsi oldu. 1993-cü ildə ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı müstəqil Azərbaycanın, Yeni Azərbaycan Partiyasının tarixində önəmli mərhələnin təməlini qoydu. 1991-1993-cü ilin iyununa qədər olan dövr Azərbaycanın tarixində uğursuz bir səhifə kimi öz əksini tapıb. AXC-Müsavat cütlüyünün bir illik hakimiyyətləri dövrü yaddaşlardadır. Ölkəni xaosa, anarxiyaya, özbaşınalığa sürükləyən bu ünsürlər dövlət müstəqilliyimizi itirmək, Azərbaycanın bir dövlət olaraq dünyanın siyasi xəritəsindən silinmək təhlükəsi ilə üz-üzə qoymuşdular. Belə çətin məqamda xalq üzünü öz xilaskarına-ulu öndər Heydər Əliyevə tutdu.

“Yeni Azərbaycan Partiyasının yaradılması dövrün, zamanın tələbi idi”, - fikrini qeyd edən V.Rəhimzadə vurğulayıb ki, o vaxt hakimiyyəti dövlət çevrilişi nəticəsində zəbt etmiş AXC-Müsavat cütlüyü ən antidemokratik addımlar atmağa hazır idi ki, bu partiyaya əngəllər törətsin. Yeni Azərbaycan Partiyası o vaxt ölkədə siyasi sistemin yaradılmasına çox böyük töhfə vermişdir. Bu gün Azərbaycan demokratiya yolunda inamla irəliləyir. Demokratik dəyərlərə sadiqliyini sözdə deyil, əməldə təsdiqləyən ölkəmizdə demokratik cəmiyyətin atributları olan insan hüquq və azadlıqlarının qorunması, azad mətbuatın inkişafı, çoxpartiyalı sistemin yaradılması, seçkilərin demokratik, beynəlxalq standartlara uyğun keçirilməsi kimi biri-birindən vacib məsələlər ölkəmizdə öz həllini tapdı. Məhz ulu öndər Heydər Əliyevin düzgün müəyyənləşdirdiyi siyasətin və hazırda bu xəttin Prezident İlham Əliyev tərəfindən uğurlu davam etdirilməsinin nəticəsində Azərbaycanın demokratiya təcrübəsi dünyaya nümunə göstərilir.

“1992-ci il 21 noyabr tarixindən bizləri ayıran 27 illik zaman Yeni Azərbaycanı Partiyasının imza atdığı uğurların bələdçisidir”, - söyləyən V.Rəhimzadə qeyd edib ki, hazırda partiyanın sıralarında 750 minə yaxın üzvün birləşməsi yalnız statistika deyil, Heydər Əliyev ideyalarına sədaqətin, dövlətimizin başçısı İlham Əliyevin həyata keçirdiyi siyasətə inamın göstəricisidir. 750 minə yaxın üzv, eyni zamanda, həqiqətlərimizin, Azərbaycana uğur qazandıran Heydər Əliyev ideyalarının təbliğatçısıdır. Bir məqamı da qeyd edək ki, partiyanın sıralarında birləşən üzvlərin 40 faizini gənclərin təşkil etməsi də bir çox məqamların təqdimatıdır. Dövlətimizin başçısı İlham Əliyev partiyanın yaradılmasının 25 illiyinə həsr edilmiş təntənəli yubiley mərasimində bu məqamı belə əsaslandırmışdır: “Yəni, bu gün partiyamızın fəaliyyəti, ideyaları, apardığı siyasət gənc nəsil üçün də cəlbedicidir və bu, çox müsbət haldır. Bu, onu göstərir ki, Azərbaycanda bundan sonra da uzunmüddətli, dayanıqlı inkişaf təmin olunacaq və partiyanın təbliğ etdiyi, bəyan etdiyi prinsiplər bu gün xalq tərəfindən tam dəstəklənir. İndi Azərbaycanda görülmüş işlər, ölkəmizin uğurlu inkişafı, əlbəttə, hər bir vətənpərvər insana əyani şəkildə göstərir ki, bugünkü iqtidarın apardığı siyasət yeganə düzgün siyasətdir”.

1993-cü ildən sonra görülən işlərin bugünkü reallıqlarımız olduğunu bildirən V.Rəhimzadə onu da əlavə edib ki, bu baxımdan həmin dövrdə yaradılan möhkəm təməl Azərbaycanın uğur yolunda inamla addımlamasına stimul verir. Zəngin təbii resurslara malik olan ölkəmiz bu ehtiyatlardan səmərəli istifadə etməklə iqtisadi inkişafını təmin etdi. Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə 1994-cü il sentyabrın 20-də imzalanan “Əsrin müqaviləsi” Azərbaycanın iqtisadi inkişafına stimul oldu. BTC və BTƏ neft-qaz kəmərlərinin reallığa çevrilməsi, “Əsrin müqaviləsi”nin imzalanmasından 23 il sonra “Yeni əsrin müqaviləsi”nin imzalanması, ötən il Cənub Qaz Dəhlizinin, həmçinin onun əsas seqmentlərindən olan TANAP-ın istifadəyə verilməsi Azərbaycanın etibarlı tərəfdaş mövqeyinin təsdiqidir.

V.Rəhimzadə qeyd edib ki, ölkəmizdə iqtisadi və siyasi islahatların vəhdətinin qorunması Azərbaycanın bugünkü uğurlarında əsas rol oynayır. Son 16 ildə təkmil islahatlar, qəbul olunan qanunların, Milli Konstitusiyamızın zamanın tələbinə uyğun təkmilləşdirilməsi, azad mətbuatın inkişafına xidmət edən biri-birindən mühüm addımlar- KİV-lərin İnkişafına Dövlət Dəstəyi Konsepsiyasının qəbulu, bu sənədə uyğun olaraq Azərbaycan Respublikasının Prezidenti yanında KİV-lərə Dəstək Fondunun yaradılması, həmçinin jurnalistlərin mənzil şəraitinin yaxşılaşdırılması məqsədilə dünyada analoqu olmayan addımın atılması, “Siyasi partiyalar haqqında” yeni qanunun qəbulu, 2003-cü ildə Azərbaycan hökuməti ilə Avropa Şurası Venesiya Komissiyası, həmçinin ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun birgə əməkdaşlığı nəticəsində qəbul olunan Seçki Məcəlləsinin zamanın tələbi əsasında yeniləşməsi və təkmilləşməsi və sair kimi mühüm addımlar Azərbaycanın demokratik inkişafı strateji kursunun əsası kimi qəbul etdiyini bir daha ortaya qoyur.

V.Rəhimzadə uğurlarımız sırasında Azərbaycanın diplomatik mübarizədə qələbəsindən də geniş bəhs edib. Bildirib ki, ulu öndər Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra diqqət göstərdiyi əsas məsələlərdən biri Azərbaycanın ətrafında yaradılan informasiya blokadasının yarılması oldu və uğurlu siyasəti nəticəsində bu məqsədə nail oldu. Ümummilli Liderin elə bir səfəri yox idi ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi əsas müzakirə mövzusu olmasın, ən əsası erməni yalanları faktlar əsasında ifşa edilməsin. Son 16 ildə bu siyasi kursun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi Azərbaycanın diplomatiya sahəsində uğurlarına yeni əlavələr etdi. Təkcə cari ilin ötən dövründə əldə olunan uğurlara diqqət yetirmək kifayətdir. Bu günlərdə BMT Baş Assambleyasından sonra dünya dövlətlərinin təmsil olunduğu ən böyük siyasi təsisat olan, 120 üzvü sıralarında birləşdirən Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşünə ölkəmizin ev sahibliyi etməsi, həmçinin dövlətimizin başçısı İlham Əliyevin Rusiyanın Soçi şəhərində dünyanın məşhur “beyin mərkəzləri”ndən biri olan “Valday” Beynəlxalq Diskussiya Klubunun “Şərq şəfəqləri və dünya siyasi quruluşu” mövzusunda XVI illik iclasında, MDB Dövlət Başçıları Şurasının Aşqabad sammitində çıxışı Ermənistana və onun havadarlarına ciddi mesaj olmaqla yanaşı, Azərbaycanın böyük diplomatik uğuru kimi dəyərləndirildi.

V.Rəhimzadə 27 ilin uğurları sırasında ölkəmizdə idarəçilik sistemində təkmilləşmənin yol açdığı uğurlarımızdan da bəhs edib. Bildirib ki, 2016-cı ildə keçirilən referendumda səsverməyə çıxarılan əlavə və dəyişikliklərin bir hissəsi məhz idarəçilik sistemində təkmilləşməyə xidmət edirdi. Vitse-prezidentlik institutunun yaradılması, yaş məhdudiyyətinin aradan götürülməsi və sair kimi məsələlər bunun bariz nümunəsidr. Bu gün Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın xidmətləri göz önündədir. Mehriban xanım Əliyevanın Heydər Əliyev Fondunun prezidenti, Yeni Azərbaycan Partiyasının sədr müavini, UNESKO və ISESKO-nun xoşməramlı səfiri kimi fəaliyyəti hər zaman ölkə ictimaiyyəti tərəfindən yüksək dəyərləndirilir. Görülən bütün işlərin təməlində Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət dayanır. Dövlətimizin başçısı İlham Əliyevin həyata keçirdiyi gəncləşmə siyasəti ölkə ictimaiyyəti tərəfindən böyük rəğbətlə qarşılanır. Yeni Azərbaycan Partiyasında gənclərin çoxluq təşkil etməsində də bu çağırışın rolu böyükdür.

V.Rəhimzadə Azərbaycanın uğurlarına davamlı töhfələr verən, yeni-yeni hədəflərə doğru inamla irəliləyən Yeni Azərbaycan Partiyasının 27 illik yolunu bir yazıda əhatə etməyin mümkünsüzlüyünü bildirərək, bu mühüm məqamı da xüsusi qeyd edib ki, dövlətimizin başçısı İlham Əliyev uğurlarda Yeni Azərbaycan Partiyasının hər bir üzvünün payı olduğunu hər zaman önə çəkir: “Bu gün partiyamız ölkəmizin aparıcı siyasi qüvvəsi kimi bu böyük məsuliyyəti hiss edir, onu öz üzərinə götürür. Partiyamızın üzvləri müxtəlif sahələrdə ölkəmizin ümumi inkişafına çox böyük töhfələr verirlər. Bu gün Yeni Azərbaycan Partiyası dünya miqyasında çox böyük və güclü partiyadır. Bizim beynəlxalq əlaqələrimiz də genişlənir. Beləliklə, məndə partiyamızın gələcək inkişafı ilə bağlı çox nikbin fikirlər var”.

“Tarixə uğurlar, qələbələr partiyası kimi daxil olan Yeni Azərbaycan Partiyasına milyonların sevgisi şəksizdir”, - söyləyən V.Rəhimzadə qeyd edib ki, partiya hər bir seçkidən uğurla çıxmaqla xalqın dəstəyinin nə qədər böyük olduğunu, partiyanın gələcəyinə inamın şübhəsizliyini təsdiqləyir. 2018-ci ildə keçirilən prezident seçkiləri bunun bir daha təsdiqi oldu. Ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri qələbəsi ilə növbəti 7 il üçün Azərbaycanın davamlı inkişafına, yeni hədəflərin gerçəkləşməsinə təminat verdi. Ölkəmiz növbəti bələdiyyə seçkiləri ərəfəsindədir. YAP-ın bu seçkilərdə də qələbəsi şəksizdir. Populizmdən uzaq, sözlə əməl birliyi olan partiyaya xalqın sevgisi, dəstəyi qaçılmazdır. Xalq-iqtidar birliyi əbədidir, sarsılmazdır. Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin yaratdığı və son 16 ildə dövlətimizin başçısı İlham Əliyevin uğurla inkişaf etdirdiyi Yeni Azərbaycan Partiyası 27 illik yolun işığına söykənərək irəliyə doğru inamla addımlayır, qarşıdakı illərdə üzvü olmaqdan qürur duyduğumuz, ölkənin aparıcı siyasi təşkilatını daha möhtəşəm uğurlar gözləyir.

## Gürcüstan saytı AZƏRTAC-ın müxbirinin məqaləsini yayıb

Gürcüstanda Azərbaycan və gürcü dillərində yayımlanan, geniş oxucu kütləsinə malik gaxa.ge internet portalı AZƏRTAC-ın xüsusi müxbirinin Azərbaycan və Gürcüstan arasında diplomatik əlaqələrin qurulmasının 27-ci ildönümü ilə bağlı məqaləsini dərc edib. Məqalədə Azərbaycan ilə Gürcüstan arasındakı qədim dostluq münasibətlərindən, iki ölkə arasında diplomatik əlaqələrin qurulmasından ötən müddətdə əldə olunan uğurlardan bəhs edilir, habelə siyasətçilərin fikirlərindən sitatlar gətirilir. Məqalənin tam mətni ilə aşağıdakı linkdən tanış olmaq mümkündür: https://gaxa.ge/n/2900



# YAP Səbail rayon təşkilatı Yeni Azərbaycan Partiyasının yaradılmasının 27-ci ildönümünü qeyd edib

***Dünən YAP Səbail rayon təşkilatında Yeni Azərbaycan Partiyasının yaradılmasının 27-ci ildönümü ilə bağlı tədbir keçirilib. Tədbirdən öncə, 1991-ci il 20 noyabr tarixində Xocavənd rayonunun Qarakənd kəndi yaxınlığında erməni hərbi dəstələri tərəfindən törədilən terror əməliyyatı nəticəsində faciəvi şəkildə həlak olan Azərbaycanın görkəmli dövlət, siyasət və mədəniyyət nümayəndələrinin, eləcə də, ötən müddət ərzində dünyasını dəyişən "91-lər"in və partiya üzvlərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Yeni Azərbaycan Partiyasının yaradılmasına və fəaliyyətinə həsr olunan videofilm nümayiş etdirilib.***





Ulu Öndər Heydər Əliyevin yaxın silahdaşlarından olan və Yeni Azərbaycan Partiyasının yaradılmasında, müstəqil dövlət quruculuğunda yaxından iştirak edən Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, iqtisad elmləri doktoru, professor Eldar İbrahimov Yeni Azərbaycan Partiyasının təsis olunmasını zəruri edən şərtlər, partiyanın təşkilatlanması prosesləri, o dövrdəki çətinliklər və təqiblər haqqında danışaraq, qeyd edib ki, Azərbaycanın müasir siyasi tarixinə unudulmaz və möhtəşəm bir gün kimi daxil olan 1992-ci il noyabrın 21-i respublikamızın ictimai-siyasi həyatında yeni tarixi başlanğıc nöqtəsi sayılır.

Komitə sədri vurğulayıb ki, Azərbaycan siyasi mühitinin ən güclü, monolit və mütəşəkkil siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasının möhtəşəmliyinin bariz təzahürü onun cəmiyyətin bütün sosial-ictimai maraqlarının ifadəçisi olmasıdır: "Çünki Azərbaycan xalqının istəkləri, cəmiyyətin sosial-iqtisadi sifarişləri YAP-ın konseptual strateji proqramında ana xətti təşkil edir".

Tədbirdə çıxış edən Milli Məclisin deputatı, YAP Səbail rayon təşkilatının sədri, iqtisad elmləri doktoru, professor Şəmsəddin Hacıyev Azərbaycanın müasir siyasi tarixinin ən şərəfli hadisələrindən biri olan Yeni Azərbaycan Partiyasının yaradılmasının 27-ci ildönümü münasibətilə tədbir iştirakçılarını səmimi qəlbdən təbrik etdi. Millət vəkili Azərbaycanda 1988-ci ildən başlayan milli oyanış, özünəqayıdış, azadlıq mübarizəsi və meydan hərəkatları, SSRİ kimi nəhəng fövqəldövlətin süqutu nəticəsində Azərbaycanın müstəqillik əldə etməsi, 1991-1993-cü illərdə ölkəmizdə baş verən son dərəcə ağır, ziddiyyətli və mürəkkəb proseslər, bütün bu hadisələrin məntiqi yekunu kimi tamamilə obyektiv zərurətdən yaradılan Yeni Azərbaycan Partiyasının təsisi haqqında ətraflı məlumat verdi.

Ş.Hacıyev bildirdi ki, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə o vaxtki səriştəsiz və bacarıqsız hakimiyyətə müxalifət partiyası kimi yaradılan Yeni Azərbaycan Partiyası cəmi yeddi ay sonra iqtidara gəldi və dahi rəhbər, görkəmli dövlət xadimi və nəhəng siyasətçi olan Ulu Öndər Heydər Əliyev çox qısa müddət ərzində, ölkədəki çıxılmaz böhran vəziyyətini tarazladı, ictimai-siyasi sabitliyi bərpa etdi, atəşkəsə nail oldu və Azərbaycanı iqtisadi tənəzzüldən sürətli inkişaf yoluna çıxartdı.

Ş.Hacıyev xüsusi qeyd edib ki, son 16 il ərzində ölkə başçısı Azərbaycanın müstəqilliyini əbədiləşdirdi, ölkəmizi Cənubi Qafqaz regionunun şəksiz liderinə və nəinki bu bölgənin, ümumilikdə, yaxın coğrafiyanın müstəqil siyasət yürüdən ölkəsinə, transmilli layihələr icra edən multikultural, tolerant, modern dövlətə, islam həmrəyliyinin və konfessiyalararası dialoq mərkəzinə, kosmos ölkələri klubunun üzvünə çevirdi: "Bütün bu uğurların əldə olunmasında və müstəqilliyimizin ilk illərindən etibarən respublikamızın ictimai-siyasi həyatında baş verən bütün proseslərdə Yeni Azərbaycan Partiyasının xüsusi yeri və rolu olduğunu vurğulayan deputat bildirdi ki, üzvlərinin mütləq əksəriyyəti gənclər və qadınlardan ibarət olan Yeni Azərbaycan Partiyası sıralarında 750 mindən çox siyasi həmfikiri cəmləşdirməklə, yaxın coğrafiyanın ən güclü və mütəşəkkil siyasi qüvvəsidir. Yeni Azərbaycan Partiyası yarandığı gündən Azərbaycan cəmiyyətinə siyasi mədəniyyət gətirdi, sivil siyasi mübarizə məktəbi, idarəçilikdə yeni imic yaratdı.

Tədbirdə Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini, YAP Səbail rayon "Ailə problemləri" ərazi ilk partiya təşkilatının sədri Sədaqət Qəhrəmanova və YAP Səbail rayon "İdarəedicilər" ərazi ilk partiya təşkilatının sədri Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dekanı prof. Elçin Əhmədov çıxış edərək Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı və müstəqil dövlətçiliyinin qurulması üçün yerinə yetirdiyi xilaskarlıq missiyası, müstəqilliyin ilk illərində ölkəmizdə hökm sürən hakimiyyət böhranı və dövlətçiliyimiz üçün ən taleyüklü məqamda Azərbaycan xalqını milli azərbaycançılıq ideologiyası ətrafında birləşdirməyə nail olan Ulu Öndərin əvəzsiz xidmətləri haqqında danışıblar.

YAP Səbail rayon təşkilatının gənc fəalı, Azərbaycan Dövlət İqtisad Universitetinin tələbə-rektoru Cavidan Adilzadə gənclərin Yeni Azərbaycan Partiyasındakı fəaliyyəti haqqında danışıb. Sağlam Azərbaycan gəncliyinin, xalqına və dövlətinə bağlı gənclərin bu partiya sıralarında cəmləşdiyini vurğuladı.

***RƏFİQƏ HÜSEYNOVA***

## Doqquz ayda 164,4 min yeni iş yeri açılıb

Bu ilin doqquz ayı ərzində ölkədə 164,4 min yeni iş yeri açılıb. Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, bu dövrdə yaradılmış iş yerlərinin 24,1 faizi qeyri-dövlət sektorunda açılıb. Yeni iş yerlərinin 55 faizi Bakı şəhərinin, 1,8 faizi Naxçıvan Muxtar Respublikasının, 43,2 faizi digər regionların, o cümlədən 14,6 faizi Aran, 7,3 faizi Gəncə-Qazax, 6,4 faizi Lənkəran, 3,9 faizi Abşeron, 3,7 faizi Şəki-Zaqatala, 2,6 faizi Dağlıq Şirvan, 2,5 faizi Yuxarı Qarabağ, 2,1 faizi Quba-Xaçmaz, 0,1 faizi isə Kəlbəcər-Laçın iqtisadi rayonlarının payına düşür.

İş yerlərinin 32 faizi yeni yaradılmış müəssisə və təşkilatlarda, 22,9 faizi mövcud müəssisə və təşkilatlarda, 0,4 faizi fəaliyyətini bərpa etmiş müəssisə və təşkilatlarda, 44,7 faizi isə digər tədbirlər üzrə açılıb. Hüquqi şəxslər tərəfindən yaradılmış iş yerlərinin 51 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi, 12 faizi tikinti, 8,1 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 6,1 faizi emal sənayesi, 3,4 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 3,1 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,6 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 2,2 faizi peşə, elmi və texniki fəaliyyət, 1,7 faizi nəqliyyat və anbar təsərrüfatı, 9,8 faizi isə digər iqtisadi fəaliyyət növləri üzrə açılıb.

# YAP Heydər Əliyevin nəhəng nüfuzu və ideyası ətrafında yarandı



Yeni Azərbaycan Partiyasının yaranması ölkədə xaos, anarxiyanın tüğyan etdiyi zamanlara təsadüf edir. Bunu Trend-ə "Səs" qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev Yeni Azərbaycan Partiyasının təsis edilməsinin 27-ci ildönümü ilə bağlı fikirlərini şərh edərkən deyib. O bildirib ki, məhz ölkənin məhv olmaq təhlükəsi ilə üz-üzə qalması, xalqın səfalət və qorxu içində yaşaması yeni bir siyasi qüvvənin meydana gəlməsi zərurətini ortaya qoymuşdu: "YAP-ın müxalifət partiyası kimi yaranması və qısa müddət ərzində iqtidara gəlməsinin əsasında bir sıra mühüm məqamlar dayanmaqdadır. Həmin dövrdə baş verən ictimai-siyasi proseslərinin təhlilini apararsaq, ilk öncə belə bir nəticəyə gələ bilərik ki, YAP Ulu Öndər Heydər Əliyevin siyasi-ideoloji konsepsiyası əsasında - xalqın tələb və sifarişləri kontekstində yaranmış partiyadır və ötən 27 ildə həmin ideoloji kursun inkişaf və təkmilləşdirilməsi prosesinin xalq tərəfindən dəstək alması da bu reallığı özündə kifayət qədər ehtiva etməkdədir. Biri var partiya yaranır və özünə lider seçir, biri də var ki, liderin nəhəng nüfuzu və ideyası ətrafında partiya yaranır və bütöv bir xalqın etibarına, etimadına söykənərək, ölkəsini xaos və anarxiyadan xilas edir. Bax, bu mühüm nüans Yeni Azərbaycan Partiyasının digər siyasi təşkilatlar üzərindəki üstünlüyü faktını ortaya qoyur. Çünki xalq öz liderini hakimiyyətdə görmək istədi və liderin hakimiyyətə gəlişi ilə YAP iqtidar partiyasına çevrildi. Beləliklə, bu fikirləri daha dərindən izah etsək, əminliklə deyə bilərik ki, istənilən siyasi təşkilat yaradılarkən həmin təşkilatın lideri xalqa təqdim edilir, amma Yeni Azərbaycan Partiyasını və onun ideoloji prinsiplərini məhz Ulu Öndərimiz xalqa təqdim etdi. Çünki Heydər Əliyevin hər hansı bir təqdimata ehtiyacı yox idi. Onun nəhəng nüfuzunu bütün dünyanın siyasi çevrələri tanıyır və qəbul edirdi".

Siyasi ekspert deyib ki, təməli xalqın iradəsi və tükənməz dəstəyi ilə qoyulan YAP bu gün də həmin vəhdət əsasında fəaliyyətini davam etdirməkdə, yeni-yeni uğur və qələbələr əldə etməkdədir: "Ona görə də Ulu Öndər Heydər Əliyevin yaradıcısı olduğu Yeni Azərbaycan Partiyası bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf edir, sıralarını kəmiyyət və keyfiyyət baxımından daha da möhkəmləndirir. Ulu Öndər Heydər Əliyev deməkolar ki, partiyamızın fəaliyyəti ilə bağlı çıxışlarının hər birində vurğulayırdı ki, Yeni Azərbaycan Partiyasına xidmət etmək dövlətə, xalqa xidmət etmək deməkdir".

"Həmin fikrin davamı olaraq Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyev bütün çıxışlarında bildirir ki, Yeni Azərbaycan Partiyasının üzvü olmaq böyük məsuliyyətdir" - deyə, qeyd edən baş redaktora görə, partiyanın keçdiyi 27 illik yol xalqın ona olan rəğbətinin bariz təzahürüdür: "Çünki partiyamızın Sədri cənab İlham Əliyevin siyasi fəaliyyəti bilavasitə Ulu Öndərimiz tərəfindən əsası qoyulmuş əbədi prinsiplərə söykənir. Bu gün cənab İlham Əliyevin həm lider kimi, həm Prezident kimi xalqa söykənməsi, arxalanması əbədi müstəqilliyimizi təmin edir. Bu, bilavasitə xalq-iqtidar, yaxud, xalq-Prezident birliyinin, sarsılmaz vəhdətinin bariz təcəssümüdür. Son 16 ildə partiyanın parlament və bələdiyyə seçkilərində əldə etdiyi uğur və qələbələri və s. zəfərlər də belə bir nəticəyə gəlməyə zəmin yaradır".

Bəhruz Quliyev sonda YAP-ın təsis edilməsinin 27-ci ildönümü ilə bağlı siyasi əqidədaşlarına öz ürək sözlərini də çatdırıb: "Mən də Yeni Azərbaycan Partiyasının hər bir üzvünü təşkilatımızın 27-ci ildönümü münasibəti ilə ürəkdən təbrik edir, dövlətimizin, xalqımızın inkişaf və tərəqqisi yolunda yorulmadan, əzmlə çalışmalarını arzulayıram".

# YAP dünənin, bu günün və gələcəyin partiyasıdır

*Yeni Azərbaycan Partiyasının yaranmasının 27-ci illiyi münasibəti ilə Yevlax rayon təşkilatı tədbir keçirib*





Dünən YAP Yevlax rayon təşkilatının təşkilatçılığı ilə Yeni Azərbaycan Partiyasının yaranmasının 27-ci ildönümünə həsr edilən tədbir keçirilib. Rayonun partiya fəalılarının və ziyalıların iştirakı ilə keçirilən tədbirdə ilk öncə, Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə tər çiçəklər düzüb, xatirəsini yad ediblər.

YAP Yevlax rayon təşkilatının akt zalında keçirilən tədbirdə YAP Yevlax rayon təşkilatının sərdi, millət vəkili İlham Məmmədov çıxış edərək, tədbir iştirtakçılarını təbrik edib, partiyanın keçdiyi tarixi yoldan danışıb. "Bu, həmin ərəfə idi ki, Azərbaycanda xaos hökm sürürdü, dövlət büdcəsi talan olunmuşdu, ölkədə hər addımbaşı cinayətlər törədilirdi. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında yeni siyasi partiya yaratmaq istəyi ilə 1992-ci ilin oktyabrında ziyalılar "SƏS" qəzeti vasitəsilə Ona müraciət ünvanladılar. 21 noyabr 1992-ci ildə Naxçıvanda YAP-ın təsis konfransı keçirildi və Ulu Öndər Heydər Əliyev partiyanın Sədri seçildi".

Tədbirdə Yevlax rayon icra hakimiyyətin başçısı Anar Tağıyev çıxış edərək, Azərbaycanda dövlətçiliyin möhkəmlənməsi və demokratik prinsiplərin bərqərar olmasının, demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinin uğurla, sürətlə həyata keçirilməsinin Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olduğunu bildirərək vurğulayıb ki, Ümummilli Lider Heydər Əliyevin siyasi, iqtisadi, ictimai və mədəni həyatın bütün sahələrində gördüyü işlər, artıq Azərbaycanı inkişaf yoluna çıxarıb. "Ulu Öndərin bu istiqamətdə gördüyü əsas işlərdən biri də, məhz Yeni Azərbaycan Partiyasının yaratmaq idi" deyə qeyd edən A.Tağıyev, həmçinin bildirib ki, olduqca çətin dövrdə yaranan bu partiya Ümummilli Liderin də dediyi kimi, dünənin, bu günün və gələcəyin partiyası oldu.

Sonda bir qrup YAP fəallarına fəxri fərmanlar, partiya sıralarına yeni qəbul olunmuş üzvlərə partiya vəsiqələri təqdim edilib.

**RƏFİQƏ**

## Samux rayonunda Yeni Azərbaycan Partiyasının yaranmasının 27-ci ildönümü münasibətilə tədbir keçirildi



Yeni Azərbaycan Partiyasının Samux rayon təşkilatında partiyanın yaradılmasının 27-ci ildönümü münasibətilə tədbir keçirilib. Tədbir iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək, Ulu Öndərin əziz xatirəsinə ehtiramlarını ifadə ediblər.

Tədbiri giriş sözü ilə açan YAP Samux rayon təşkilatının sədri Gündüz Bayramov Azərbaycan dövlətçiliyinin inkişafında partiyanın xidmətlərindən danışıb. O, qeyd edib ki, Ulu Öndər Heydər Əliyev öz siyasi dühası ilə Azərbaycanın müasir simasını müəyyənləşdirib və xalqımızın taleyində silinməz izlər qoyub: "Bu izlərdən biri də Yeni Azərbaycan Partiyasıdır. Azərbaycan Prezidenti İlham Əliyevin Sədri olduğu Yeni Azərbaycan Partiyası bizim qarşımızda xalqımıza, dövlətimizə sədaqətlə xidmət etmək, həyatda fəal olmaq və Azərbaycanın dövlət müstəqilliyinin qorunub- saxlanılmasında yaxından iştirak etmək kimi önəmli vəzifələr qoyur".





Tədbirdə Samux rayon icra hakimiyyətinin başçısı Alı Qocayev çıxış edərək bildirdi ki, Yeni Azərbaycan Partiyasının güclü siyasi təşkilat olaraq formalaşması, ölkəmizin içtimai-siyasi həyatında iqtidar partiyası kimi aparıcı yer tutması dövrün məntiqi reallığı idi: "Ulu Öndər Heydər Əliyev siyasi baxışlarından və siyasi fəlsəfəsindən səmərəli şəkildə bəhrələnməsi partiyanın qələbələr qazanmasını şərtləndirirdi. Bu gün də YAP Möhtərəm Prezidentimiz, partiyamızın Sədri İlham Əliyevin rəhbərliyi ilə böyük uğurlar qazanır. Partiyamız ölkənin bugünkü sürətli inkişafında və respublikanın beynəlxalq nüfuzunun artmasında bütün sahələrdə əldə olunan tərəqqidə xüsusi rola malikdir. Ulu Öndərimiz Heydər Əliyevin və Cənab Prezidentin siyasətinə sadiq olan Samux sakinləri bundan sonra da bu yola sədaqətlə xidmət göstərəcəklər".

Tədbirdə YAP Samux rayon təşkilatının qadınlar şurasının sədri Kəmalə Xəlilova, Samux şəhər 2 saylı uşaq bağçasının direktoru Aytən Məmmədova, gənclər birliyinin fəal üzvü Rasim İmamquliyev, İnstitut qəsəbə tam orta məktəbin müəllimi Züleyxa Namazova və Lək kənd tam orta məktəbin müəllimi Ülviyyə Qasımova çıxış edərək, partiyanın yaranma tarixi, onun keçdiyi şərəfli inkişaf yolu haqqında fikirlərini bildiriblər.

Tədbirin sonunda ictimai-siyasi aktivliyi ilə seçilən bir qrup partiya üzvünə Fəxri fərmanlar və hədiyyələr, YAP sıralarına yeni qoşulan şəxslərə üzvlük vəsiqələri təqdim olunub.

**RƏFİQƏ KAMALQIZI**



## YAP Laçın rayon təşkilatında Yeni Azərbaycan Partiyasının yaranmasının 27 illiyi qeyd olunub



Dünən Yeni Azərbaycan Partiyasının yaranmasının 27 illiyi ilə bağlı Yeni Azərbaycan Partiyasının Laçın rayon təşkilatı Ağcabədi rayonunun Taxta Körpü qəsəbəsində tədbir keçirib.

Ulu Öndər Heydər Əliyevin və şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra tədbiri giriş sözü ilə Laçın rayon icra hakimiyyəti başçısının müavini, YAP Laçın rayon təşkilatının sədri İlqar İlyasov açaraq qeyd edib ki, bu gün üzərimizdə üzvlük vəsiqəsini fəxrlə daşıdığımız Yeni Azərbaycan Partiyasının yaranmasının 27 ili tamam olur. Natiq bu münasibətlə Yeni Azərbaycan Partiyasının sədri, Möhtərəm Prezidentimiz İlham Əliyevi, partiyanın İdarə Heyəti və Siyasi Şuranın üzvlərini, İcra Katibliyinin rəhbərliyini, partiyanın 750 mindən çox üzvünü, təəssübkeşlərini təbrik edib. İ.İlyasov onu da vurğulayıb ki, Yeni Azərbaycan Partiyası siyasi səhnəyə XX əsrin 90-cı illərinin əvvəllərində ölkədə yaranmış mürəkkəb ictimai-siyasi şəraitdə gəlmişdir: "Yeni Azərbaycan Partiyasının yaradıcısı, Azərbaycan dövlətinin qurucusu və memarı Ümummilli Liderimiz Heydər Əliyevin qoyduğu tarixi ənənələr bu gün Yeni Azərbaycan Partiyası tərəfindən sədaqətlə həyata keçirilməkdədir. Bu tarixi reallığı Prezidentimiz, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev qətiyyətli və dönməz siyasəti ilə gerçəkləşdirir".

Tədbirdə digər çıxış edən rayon ziyalıları, partiya fəalları xalqın arzularının təcəssümü, yekdil iradəsinin ifadəsi kimi tarixi reallıqdan irəli gələrək, vətənpərvərlik, əqidə birliyi, dövlət müstəqilliyi və azərbaycançılıq ideyalarının möhkəm təməli üzərində yaranan Yeni Azərbaycan Partiyasının ölkəmizin siyasi həyatına yeni nəfəs verdiyini, qurtuluş və tərəqqinin simvoluna çevrildiyini bildiriblər.

Tədbirin sonunda Yeni Azərbaycan Partiyası sıralarına yeni qəbul edilən bir qrup laçınlı gənclərə partiyanın üzvlük vəsiqələri təqdim olunub.

**R.KAMALQIZI**

# Bir çıxış yolu qalır: Ermənistanı məhv etmək

*Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində vasitəçilik missiyasını üzərinə götürən Rusiya, Fransa və ABŞ üzərlərinə götürdükləri öhdəliklərə uyğun fəaliyyət göstərmirlər. Əksər hallarda həmsədr ölkələrin rəsmi şəxsləri münaqişənin sülh yolu ilə həllinin ruhuna zidd olan açıqlamalar verirlər. Bu günlər Ermənistana rəsmi səfəri zamanı Rusiya xarici işlər naziri Sergey Lavrovun erməni maraqlarına uyğun açıqlamalar vermişdir. Təbii ki, bu da, münaqişənin həllinin uzanmasına gətirib çıxarır. Söhbət etdiyimiz müsahiblərimiz münaqişənin həllində ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrinin qeyri-müəyyən mövqe sərgiləmələrinin ikili standartlara xidmət etdiyini bildirdilər.*

**Siyasi şərhçi Azər Həsrət: “Sergey Lavrov Ermənistana səfəri zamanı neytrallığı qorumadı”**



- Əlbəttə ki, həm Rusiyanın, həm ATƏT-in Minsk Qrupunun həmsədri və bütövlükdə, bizim regionda önəmli dövlət olması baxımından, Dağlıq Qarabağ münaqişəsinin həllində öz neytrallıqlarını qorumaları vacibdir. Amma təəssüflər olsun ki, Rusiya xarici işlər naziri Sergey Lavrovun Ermənistana səfəri zamanı bu neytrallığı qorumadı. Sergey Lavrovun neytrallığı qorumaması, əlbəttə ki, Dağlıq Qarabağ münaqişəsinin həllinin uzadılmasına xidmət edən amillərdən biridir. Bu, təsadüfü deyil. Sergey Lavrovun ermənipərəst və erməni yanlısı olması haqqında fikirlər səsləndirilir. Görünür, Yerəvanda olarkən bu adam, məhz yayılan fikirlərin əsaslı olduğunu nümayiş etdirdi. Düşünürəm ki, Azərbaycan bu vaxta kimi yürütdüyü siyasəti davam etdirməlidir. Yəni bizim dövlətimiz xarici ölkələrin istər yaxın, istər də uzaq ölkələrin siyasətini nəzərə alır. Amma bir yerə qədər, Azərbaycanın milli mənafelərinə toxunulanda, əlbəttə ki, qərarı özümüz veririk. Ona görə də, düşünürəm ki, Azərbaycan özünün qətiyyətli siyasi mövqeyini bundan sonra da davam etdirməlidir. Əgər hansısa dövlət, xüsusilə də, ATƏT-in Minsk Qrupunun həmsədri olan dövlətlər bizə nəyi isə irad tutacaqlarsa, biz onlara, məsələn, elə Rusiyaya xatırladacağıq ki, onlar neytrallıqlarını itiriblər.

**Politoloq Qabil Hüseynli: “Dağlıq Qarabağ münaqişəsinin həllində iplərin bir hissəsi Rusiyanın əlindədir”**

- Rusiya xarici işlər naziri Sergey Lavrov Ermənistana səfəri zamanı beynəlxalq hüquq normalarına zidd olaraq, Dağlıq Qarabağla bağlı açıqlamalarından sonra hiss olunur ki, Dağlıq Qarabağ münaqişəsinin həllində qeyri-müəyyənlik yaranıb. Bu, bir daha təsdiq edir ki, Dağlıq Qarabağ münaqişəsinin həllində iplərin bir hissəsi Rusiyanın əlindədir. Yəni Rusiya öz siyasi iradəsini danışıqlar prosesinə diqtə edir və bu baxımdan da, indiki status-kvo yaranıb. Azərbaycan tərəfi bu məsələlərə özü reaksiya verməlidir. Yəni Minsk Qrupu ATƏT-in qrupudur, həm də BMT-nin nəzarəti altında işləyən qrupdur. Azərbaycan dərhal danışıqlar prosesində süni surətdə yaranmış əngəllər barədə həm ATƏT-in



fəaliyyətdə olan sədrinə, həm də BMT rəhbərliyinə məlumatlar çatdırılmalıdır. Bir sözlə, diplomatik təşəbbüslər bizlər tərəfindən qaldırılmalı və bizlər tərəfindən də yaradılan əngəllərin dəf edilməsinə cəhd göstərilməlidir. Ümumiyyətlə, bu gün hər kəs çox yaxşı bilir ki, Ermənistan işğalçı bir dövlətdir. Təbii ki, işğalçı ölkəyə ciddi sanksiyalar tətbiq olunmalıdır. Amma bu gün biz Ermənistana qarşı heç bir sanksiya görmürük.

**GÜLYANƏ**

# Bakıda yaşlı qadına qarşı quldurluq edən şəxs tutulub

Nəsimi rayonu M.Qaşqay küçəsi, ev 20 ünvanında yaşlı qadına qarşı quldurluq edilib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Nəsimi Rayon Polis İdarəsinin 21-ci polis bölməsinə müraciət edən zərərçəkən binanın girişində ona naməlum şəxsin hücum etdiyini, zorakılıq hərəkətləri ilə içərisində 3200 manat, şəxsi sənədlər, bank kartları və bir ədəd “Samsung” markalı mobil telefon olan əlindəki çantanı talayıb qaçmaqla quldurluq cinayəti törətdiyini bildirib.

Qeyd edilən hadisəni törətməkdə



şübhəli bilinən əvvəllər məhkum olunmuş paytaxt sakini Mirzə Əliyev Bakı Şəhər Baş Polis İdarəsi və Nəsimi Rayon Polis İdarəsinin 21-ci polis bölməsinin əməkdaşlarının həyata keçirdikləri təxirəsalınmaz əməliyyat tədbirləri nəticəsində saxlanılaraq istintaqa təqdim edilib. Araşdırma zamanı saxlanılan şəxsin qeyd edilən hadisədən bir neçə ay əvvəl zərərçəkən qadına qarşı başqa cinayət törətdiyi də müəyyən edilib. Belə ki, Mirzə Əliyev sentyabrın 13-də həmin qadın Nəsimi rayonundakı marketlərdən birindən çıxarkən ona əlində olan paketləri daşımağa kömək etmək adı ilə yaxınlaşıb. Paketləri evə qaldırandan sonra zərərçəkən qadın Mirzə Əliyevə su gətirmək üçün mətbəxə keçən zaman o, xanımın içərisində 2350 manat olan çantasını oğurlayaraq hadisə yerindən qaçıb. Sonuncu dəfə isə qadını bankomatdan pul çıxaran zaman görən Mirzə Əliyev onu təqib edərək binanın girişində ona hücum edib.

# Balakəndə keçmiş məhkumdan narkotik vasitələr və elektron tərəzi götürülüb

Daxili işlər orqanlarının əməkdaşları narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslərin müəyyənləşdirilərək məsuliyyətə cəlb edilməsi istiqamətində növbəti uğurlu əməliyyat tədbirləri keçiriblər. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Balakən Rayon Polis Şöbəsi əməkdaşlarının əldə edilmiş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Mahamalar kənd sakini, əvvəllər məhkum olunmuş B.Kərimovdan 5 qramdan artıq heroin və 1,260 qram metamfetamin, evindən isə 21 qramdan çox heroin, 1,01 qram marixuana və 1 elektron tərəzi aşkarlanaraq götürülüb. Faktla bağlı araşdırmalar davam etdirilir.





**Təhmasib Novruzov**

# Nəfsi hürən pişiklər

***Hərdən oturub fikirləşirdim ki, əcaba, bizim əzəli-əbədi müxaliflərimiz nədən bu iqtidara deyil, bu dövlətə qarşı bu qədər aqressivdirlər? Nə qədər fikirləşdimsə, kitablar eşələdimsə, bu suala cavab tapa bilmədim ki, bilmədim. Ona görə cavab tapa bilmədim ki, dünya dövlətlərinin tarixini də nə qədər qurdalasanız, öz dövlətinə, öz məmləkətinə bu qədər aqressivlik göstərən məxluq haqda heç bir məlumat əldə edə bilməzsiniz. Necə ki, mən vərəqlədim və bunlara bənzərin tapa bilmədim. O ki qala, düşmənlə üz-üzə qalan dövlətinə qarşı düşmən dəyirmanına su tökə!***

Yenə köməyimə atalarımızın kəlamları çatdı. Kəlamları vərəqləyirdim ki, səhifənin birində “pişik” sözünə rast gəldim. Bu zavalsızların pişik kimi miyoldadıqlarını düşünüb bu heyvancığazla bağlı kəlamları başladım höccələməyə. Axır ki, tapdım. Yenə bizim atalarımızın sözləri gəldi köməyimə. Deyiblər ki, “pişiyin ağzı ətə çatmayanda, deyir murdardı!” Milli mənsubiyyətləri şübhə doğuran, bəzi radikal müxalifət adı ilə meydana atılan məxluqların əməllərinin mahiyyətini anlamaq üçün bundan yaxşı sitat tapmaq çətindir. Yadıma düşdü ki, vaxtilə, ötən əsrin əvvəllərində rəhmətlik Mirzə Ələkbər Sabir də, şeirlərinin birində beləələrini nəzərdə tutub, bir misra da atıb ortaya: “Az qalır nəfsim hürə, it kimi dırmaşa ətə...!” Sanki rəhmətlik elə bu gün üçün, bu günümüzün anti-qəhrəmanları üçün deyib bunu. İndi mən xırdalayım, siz də görün ki, haqlıyam, ya yox? 1988-dən başlanan xalq hərəkatına yurdçu-filançı adıyla soxulan bir qrup ünsür, yavaş-yavaş pafoslu danışıqları, populist çıxışları ilə, o zamankı siyasi səbatsız adamlarda özlərinə inam yaradıb, hakimiyyətləri yıxa-yıxa, axır ki, istəklərinə nail oldular və boy sırası ilə vəzifələri bölüşdürüb, oturdular bər-bəzəkli kreslolarda. Cəmi bircə ilin ərzində, ölkəni nə günə saldılarsa, o boyda SSRİ-ni illərlə idarə etmiş dünya şöhrətli siyasətçi on ilə onların bir ildə reysdən saldığı müstəqil dövlət qatarını güclə toplayıb relsə qalxmasına, yoluna davam etməsinə nail ola bildi. Elə ki, qatar başladı sürətlə irəliləməyə, bu bərkgedən qatara yenidən minmək fikrinə düşdülər. Burunlarına qatardan gələn “ət” iyi onları necə bihuş etmişdisə, bu qatara minib, o ətdən doyunca yeməyə qərar verdilər. Qatarı sürənlər də imkan verdilər ki, qoy dadına baxsınlar qatardakı ətin. Küncdə bir yer verib dedilər ki, orda əyləşin, miyoldaya-miyoldaya yeyin. Hardan? Elə ki, onları bu qatara mindirdilər, oldular ermənifason pişiklər. Yəni “özümə yer edərəm, bir gör sənə neynərəm!” Başladılar qonum-qonşudakı qatarlarda dost axtarmağa. İt demədilər, qurd demədilər, erməni demədilər, kim bir-iki tikə ət atdısa qabaqlarına, alıb yedilər. Sonra da bu ətverənlər dedilər ki, istəyirsinizsə, kömək edək, bu qatarın sükanını alın ələ, ətin hamısı olsun sizin. Onlara da elə bu lazım deyildimi? Razılaşdılar ki, lap qatar yolundan çıxsa da, içindəkilər qəzaya düşüb, zədə-filan alsalar da, fərq eləməz. Taki bu qatarın sükanını əlimizə alıb, ağalarımızın istədikləri tərəfə sürək və içindəkiləri acından qırıb, özümüz doyunca ət yeyək. Beləcə, başladılar ağalarından aldıqları iylənmiş ətdən yeyə-yeyə qatarı yolundan döndərmək uğrunda ölüm-dirim savaşına. Amma gücləri çatmadı. Ona görə ki, sükanı idarə edənlər onlardan da, onların ağalarından da yüksək dərəcəli sürücülərdi. Üz çevirdilər qatarın sərnişinlərinə ki, onlardan dəstək alsınlar, dəstək əvəzinə, gördükləri dirsək və iki barmağın arasından boylanan baş barmaq bir az da əsəbləşdirdi. Beləcə itlərləqurdlarla və ermənilərlə əlbir olan bu zavalsızların əlləri ətdən çıxdı. Vəziyyəti belə görəndə, başladılar qatara çəmirlar atmağa. Bu qatarda demokratiya yoxdu, insan azadlığı yoxdu, nə bilim, insanlar acından ölür, tariximiz məhv edilir... Daha nə bilim nələr. Yəni əli bu məmləkətin ətinə çatmadı, pişik olsalar da, it kimi ətə dırmaşmaq istəyib ağızları üstdə yerə çırpıldılar. Bundan sonra anladılar ki, bu ət onlarlıq deyil, başladılar ki, murdar ətdi. Bax beləcə, bu qatarı yolundan döndərmək naminə, düşmənlərə satmaqda davam elədilər. Özləri cəhənnəm, onlardan əmələ gələnlər də... Burda xəbər elədilər ki, bu günlük vaxtım qurtardı. İnşallah, onlardan da yaxın vaxtlarda biriki kəlmə ərz eliyərəm qulluğunuza!

# Miqrant alverçilərini 10 il həbs gözləyir!

*Almaniyalı prokuror: “Hazırda onlar müvafiq həbsxanalara köçürülüblər”*

***Məlum olduğu kimi, Almaniya Federal Polisi azərbaycanlı siyasi mühacirlər- Vətəndaş Həmrəyliyi Partiyasının sədri, sabiq deputat Sabir Rüstəmxanlının qardaşı Əlövsət Əliyev və müxalifət partiyası olan Müsavatın xarici mərkəzinin lideri Mehdi Xəlilbəylinin qanunsuz ticarətdə və gizli əməliyyatlarda, eləcə də, sənədlərin saxtalaşdırılmasında və çirkli pulların yuyulmasında iştirakçı olmaları şübhəsi ilə xüsusi araşdırma aparır. Qeyd edək ki, Frankfurt-Mayn Federal Polisinin Kriminal İdarəsi Koblenz Prokurorluğunun sorğusu üzrə on üç obyektdə yoxlamalar keçirib. Araşdırmalar Köln, Frankfurt, Visbaden və Düsseldorfda da həyata keçirilib. Almaniya polisi Əlövsət Əliyev və Mehdi Xəlilbəyliyə məxsus mənzillərdə və ticarət obyektlərində axtarış aparıb. Bu şəxslərdən əlavə, daha altı siyasi mühacirlə bağlı da istintaq aparılır. Lakin Ə.Əliyev və M.Xəlilbəyli barəsində həbs qətimkan tədbiri seçilib.***



### Federal Polisin Kriminal İdarəsi 2019-cu ilin iyunundan bəri Koblenz prokurorunun tələbi ilə araşdırma aparır

O cümlədən, Frankfurt-Mayn Federal Polisinin Kriminal İdarəsindən bildiriblər ki, Almaniya hüquq-mühafizə orqanlarının ehtimalına görə, 49 yaşlı M.Xəlilbəyli mütəşəkkil cinayətkar qrup olduğu güman edilən dəstənin başçısı ola bilər. Hazırda səkkiz əcnəbi barəsində kommersiya və qanunsuz qaçaqmalçılıq, sənədlərin saxtalaşdırılması və çirkli pulların yuyulması şübhəsi ilə bağlı ilkin istintaq aparılır. Onlar, ən azı, 20 nəfərin Azərbaycandan 3000 ilə 10.000 avro arasında pul qarşılığında Almaniyaya məskunlaşdırılmalarında ittiham olunurlar. Cinayətkar qrup, qeyri-qanuni mühacirlərə Almaniyada uzun müddət qalmaları üçün mütəşəkkil şəkildə saxta sənədlər təqdim edib. Federal Polisin bu əməliyyatlarda iştirak edən 180 əməkdaşı xeyli sübutlar, xüsusən də, noutbuk və smartfonlar kimi müxtəlif məlumat saxlama vasitələri, ayrı-ayrı sənədlər, şəxsiyyət vəsiqələri və təqribən 21 min avro məbləğində nağd pul əldə edə biliblər. Federal Polisin Kriminal İdarəsi 2019-cu ilin iyunundan bəri Koblenz prokurorunun tələbi ilə araşdırma aparır.

### Torsten Kahl: “Şəxslər, digər Azərbaycan vətəndaşları kimi, əcnəbilərin ticarəti və qrup qaçaqmalçılığında, sənədlərin saxtalaşdırılması və çirkli pulların yuyulmasında ittiham olunurlar”

Jurnalistlər Eynulla Fətullayev və Tomas Pilz, sözügedən məsələ ilə bağlı Koblenz prokuroru Torsten Kahldan müsahibə götürərək, onu ictimailəşdiriblər. Prokuror verilən sualları cavablandırarkən, deyib ki, artıq saxlanılan şəxslərlə bağlı ilkin istintaqa başlanılıb. “İttihamlar təqsirləndirilən şəxslərə təqdim olunan əməliyyat-axtarış sübutlarına əsaslanır” deyə qeyd edən alman prokuror, əlavə edib ki, hələlik, bu işlə əlaqədar heç bir Azərbaycan vətəndaşı deportasiya olunmayıb: “Göstərdiyiniz şəxslər, digər Azərbaycan vətəndaşları kimi, əcnəbilərin ticarəti və qrup qaçaqmalçılığında, sənədlərin saxtalaşdırılması və çirkli pulların yuyulmasında ittiham olunurlar. İki nəfər rəsmi qərar əsasında həbs edilib. Hazırda onlar müvafiq həbsxanalara köçürülüb”.

T.Kahl onu da bildirib ki, yekun qərar təqdim edildiyi təqdirdə, təqsirləndirilən şəxslər Koblenz Regional Məhkəməsi qarşısında duracaqlar. “Almaniya qanunlarına görə, sahə məhkəmələri, cəzasının dörd ildən çox olmadığı və ya psixiatrik klinikaya yerləşdirilməsi ilə bağlı cinayət işlərinə baxa bilərlər. İndiki halda, söhbət 5 ildən 10 ilə qədər həbs cəzasından gedir” deyə alman prokuror miqrant alveri və saxta sənədlərin düzəldilməsi ittihamı ilə həbs edilən şəxslər barədə verdiyi müsahibəsində bildirib.

***Rövşən NURƏDDİNOĞLU***

# “Tofiq bəy Müsavatdan daha çox “Milli Şura”nı təbliğ edirdisə...”

Son günlər müxalifətin radikal qanadında baş verən hadisələr düşərgənin çıxılmaz durumda olması reallığını ortaya qoyub. Xüsusilə, Müsavat partiyası rəhbərliyinin miqrant alveri məsələsində ifşası, eləcə də, AXCP-”Milli Şura” cütlüyünün düşdüyü böhranlı vəziyyət, belə bir nəticəyə gəlməyə zəmin yaradır ki, müxalifətin dağıdıcı qanadı, bütövlükdə, siyasi məhv prosesini yaşamaqdadır. Hətta bundan qurtulmaq üçün edilən cəhdlər öz nəticəsizlikləri ilə göründəkdədir. Misal üçün, “Milli Şura”nın sədri Cəmil Həsənlinin fəaliyyətsizliyi və AXCP sədri Əli Kərimlinin ona qarşı oynadığı oyunları, nəticə etibarı ilə bir müddətdir ki, proqnozlaşdırılan məsələni gündəmə gətirib. Düzdür, sosial şəbəkələrdə və mediada C.Həsənlinin guya öz xoşu ilə sədrlik postunu T.Yaqubluya verəcəyi görüntüsü yaradılsa belə, əslində, reallıq tamamilə başqa istiqamətə yönəlib.

Daha dəqiq desək, C.Həsənlinin “Milli Şura”nın sədri postundan uzaqlaşdırılması planı ətrafındakı söz-söhbətlər digər məsələləri də önə çıxarıb. Artıq C.Həsənlinin yerinə müsavatçı T.Yaqublunun sədr olması məsələsi gündəmə çıxıb və bu olay Müsavat partiyasında da müzakirə mövzusuna çevrilib. Belə ki, Müsavat rəhbərliyi zaman-zaman T.Yaqublunun Müsavat üzvü olmasına rəğmən, “Milli Şura”nı və AXCP sədri Ə.Kərimlini təbliğ etməsinə qısqanc münasibət sərgiləyib. Hətta bir ara onun Müsavat partiyasından istefa verməsi də gözlənilirdi. Lakin buna baxmayaraq, o, qurultayda başqanlığa da namizəd oldu. Seçilməsə də, onun başqanlığa namizəd olması, həm də belə bir fikir formalaşdırdı ki, AXCP sədri Ə.Kərimli T.Yaqublunun başqan seçilməsində maraqlı olub, bu vasitə ilə AXCP-nin Müsavata təsirini panlaşdırıb. Ancaq T.Yaqublu seçilmədi və bu dəfə digər plan işə salındı - C.Həsənli uzaqlaşdırılacaq və T.Yaqublu “Milli Şura”da onun yerini tutacaq.



Yeri gəlmişkən, A.Hacılı bu barədə “Facebook” sosial şəbəkəsində status yazıb. “Hər kəsə məlumdur ki, Tofiq Yaqublu Müsavat və “Milli Şura”nın, AXCP-nin daha sıx əməkdaşlığının və müttəfiqliyinin tərəfdarıdır” deyə yazan A.Hacılı qarşı tərəfə eyham da vurmağı unutmayıb: “Ümid edirəm ki, Tofiq bəy əvvəllər bu məqsədlə Müsavatdan daha çox “Milli Şura”nı təbliğ edirdisə, “Milli Şura”nın sədri olsa, yenə eyni məqsədlə, o təşkilatdan daha çox, Müsavatı təbliğ edəcək”.

Onu da xatırlatmaq yerinə düşərdi ki, Müsavat partiyasının sabiq başqanı İsa Qəmbər, partiyasının “Milli Şura”dan çıxmasını, bu qurumun xarici təşkilatlarla əlaqəli olması ilə bağlamışdı. T.Yaqublu isə həbsdən çıxandan sonra uzun müddət AXCP-”Milli Şura” cütlüyü ilə Müsavat partiyasını bir araya gətirməyə cəhdlər göstərmişdi. Ancaq bu cəhdlər də nəticəsiz qalmışdı. Bu baxımdan, əgər T.Yaqublu “Milli Şura”nın sədri seçilsə belə, Müsavat partiyası heç vaxt bu təşkilata geri dönməyəcək. Ona görə də, A.Hacılı yuxarıda qeyd edilən sətiraltı eyhamlarını T.Yaqubluya ünvalayıb. Daha doğrusu, onu saxtakarlıq yolları ilə başqanlıq postuna oturdan İ.Qəmbəri tapdayıb keçmək və yenidən “Milli Şura”ya qatılmaq məsələsi A.Hacılının ağlının ucundan keçmir. Çünki o, yaxşı bilir ki, bu addıma getsə, başqanlıq kreslosunu da itirməli olacaq. Hər halda, İ.Qəmbərin Müsavata təsiri reallığının mövcudluğunu da xatırlayarsaq, bu proqnoz da özünü reallaşdıra bilər.

***Rövşən RƏSULOV***



# Yoxların “var” olmaq cəhdləri...

**RƏFİQƏ**

***Son günlər “Milli Şura”nın və Müsavatın mitinq, yaxud da yürüş qismində etiraz aksiyası keçirmək cəhdləri və həmin cəhdlərin uğursuzluğa düçar olması, bir daha belə qənaətə gəlməyə zəmin yaradır ki, əslində, dağıdıcı müxalifətin siyasi mövcudluqları yox səviyyəsinə qədər enib. Sadəcə, siyasi arenadan tamamilə qeyb olmamaqdan ötrü, onların bir çıxış yolları var ki, bu da, mitinq və yürüş planlaşdırmalarıdır. Keçirilən mini aksiyaların səmərə verməməsi, onun ardınca Almaniyada Ə.Kərimlinin “istehsal” etdiyi “siyasi mühacirlər”inin həbs edilməsi, vəziyyəti bir az da gərginləşdirib. Bu baxımdan, hazırda ənənəvi düşərgədə iki düşmən partiyaya çevrilmiş AXCP və Müsavat indi də bir-birlərini zəiflikdə günahlandırırlar.***

Baş verən olaylardan ibrət dərisi götürməyən həyasız və əxlaqsız AXCP sədri Ə.Kərimlinin dirijorluq çubuğu ilə fəaliyyət göstərən və partiyanın filialı olan “Milli Şura” yenidən noyabrın 29-da mitinq keçirmək iddiasındadır. Lakin arzuedilən mitinqin də ötən mitinqlərdən hər hansı bir üstünlük təşkil ediləcəyini gözləmək olmaz. Elektorat, tərəfdaş və sosial baza qıtlığını ötən mitinqlərində sübuta yetirən “Milli Şura” rəhbərliyi də, əlbəttə ki, bütün bunları yaxşı bilir. Sadəcə, AXCP sədrinin əlində saxladığı C.Həsənli kartından öz məqsədləri üçün yararlanması istiqamətində Qərb siyasi dairələrinin və həmin dairələr sayəsində ona pul ötürən erməni lobbisinin göstərişlərini reallaşdırmağa çalışır.

AXCP və Müsavatın mitinq eyforiyasına qapılmaları amili isə, maraqdoğurucu nüanslarla zəngindir. Məsələn, maraqlı dairə bununla bağlı deyir ki, Müsavatın yürüş-mitinq keçirmək barədə qərarı AXCP-dən geri qalmamağa və real müxalifət görüntüsü yaratmağa hesablanıb. Necə deyərlər, yoxların “var” olmaq cəhdləri...

26 il ərzində, heç bir nəticə əldə olunmadığı göz önünüdədir. Belə ki, “Milli Şura” bir neçə dəfə mini-aksiya keçirsə də, Müsavat da bir neçə mitinqindən sonra heç bir “kütləvi tədbir” keçirməyə nail olmayıb. Çünki Müsavat daha bir problemlə qarşı-qarşıya qalıb. Partiya daxilində qurultaydan sonra yaranmış böhranlı vəziyyət, həmin vəziyyətin yaşanması, eyni zamanda, Almaniyada Müsavatın hoqqabaz başqanın verdiyi “siyasi mühacir” vəsiqəsi ilə Almaniyada yaşayan əxlaqsız, satqın manqurtlarının həbs edilməsi üzündən baş vermiş parçalanmalar və etirazlar adıçəkilən siyasi təşkilatı dağıtmaq təhlükəsi ilə üzləşdirib. Belə bir vəziyyətdə bu çirkab bataqlıqdan çıxmaq üçün “Milli Şura” bir tərəfdən, Müsavat da o biri yandan kütləvi aksiyalar keçirmək adı altında düşdükləri böhranlı vəziyyətdən çıxmağı arzu edirlər.

Bir də, xalqa güllə atmağın sonu çayxanada “sabiq”lərlə birlikdə tum çırtlamaqla nəticələnir. Necə ki, bu gündəsən... Bir də istər C.Həsənlə, istər digər bənzətmələr edənlər bir bezin qırağı olanlar, bilməlidirlər ki, xaricdəki rejissorların əmrlərini yerinə yetirən “siyasi mühacirlər”lərin acı taleyi Ə.Kərimlini, A.Hacılını, C.Həsənlini və... sayı bəlli olmayan manqurt əxlaqsızları da gözləyir: nədən ki, tarx satqınları heç vaxt bağışlamır, zamanla tale isə bələlərinə qarşı amansız olur.

# Vətəndaş cəmiyyəti subyektləri və insan hüquqlarına hörmət prinsipləri

***Vətəndaş cəmiyyəti ictimai iştirakçılığın müxtəlif formaları ilə könüllü məşğul olan sülhün və təhlükəsizliyin dəstəklənməsinə, insan hüquqlarının inkişafına, təbliğinə və hörmətə uyğun olan ümumi maraqlar əsasında fəaliyyət göstərən fərdlər və qruplar kimi müəyyən edilmişdir: BMT-nin həyatımızın yaxşılaşdırılmasına yönəlmiş fəaliyyəti insan hüquqlarına hörmət prinsiplərinə əsaslanır. Yuxarıdakı şərhə uyğun olmaqla, vətəndaş cəmiyyəti subyektləri, birbaşa və ya dolayı yolla, öz işinin məzmun və xarakteri baxımından, insan hüquqlarının təbliğinə və qorunmasına xidmət göstərir. VCS-lər hüquqlarla bağlı məlumatlılığın artırılmasını təşviq edir, problemlərin müəyyənləşdirilməsində, strategiyaların hazırlanması, siyasət və qanunlara təsir göstərmək və hesabatlılığın təminatına nail olmaq istiqamətində icmalara köməklik göstərirlər.***

VCS-lər dövlət siyasəti ilə bağlı qərarların qəbulu proseslərinin tam həcmdə əsaslı olması üçün ictimaiyyətin fikirlərini toplayır və onları müvafiq instansiyalara göndərirlər. VCS-lər həm də eyni vaxtda bir neçə istiqamət üzrə təhlükəli və zəif mövqedə olan şəxslərə xidmətlər göstərirlər. Məsələn, vətəndaş cəmiyyəti subyektlərinə daxildir: X İnternet fəalları da daxil olmaqla, hüquq müdafiəçiləri; X İnsan hüquqları təşkilatları (QHT-lər, birliklər, zərər çəkmiş şəxslərə dəstək qrupları); X Koalisiyalar və şəbəkələr (məsələn, qadın hüquqları, uşaq hüquqları və ya ətraf mühit məsələləri, torpaq hüquqları); X Əlil şəxslər və onları təmsil edən təşkilatlar; X İcma əsaslı qrupları (yerli xalqlar, azlıqlar, kənd icmaları); X Dindar qruplar (kilsələr, məscidlər, sineqoqlar dini qruplar); X İttifaqlar (həmkarlar ittifaqları, eləcə də jurnalist birlikləri, hakimlərin, hüquqşünasların və vəkillərin assosiasiyaları, magistrat hakimlərin assosiasiyaları, tələbə birlikləri); X İctimai hərəkatlar (sülh hərəkatları, tələbə hərəkatları, demokratiya hərəkatları); X İnsan hüquqlarının təmin edilməsinə birbaşa töhfə verən mütəxəssislər (məsələn, humanitar təşkilatların əməkdaşları, vəkillər, hakimlər və tibb işçiləri); X İnsan hüquqlarının pozulması qurbanlarının qohumları assosiasiyaları; X İnsan hüquqlarının təşviqinə çox demokratiya, daha çox qarşılıqlı fəaliyyət və açıqlıq. Bu, vətəndaş cəmiyyəti üçün maksimum fəaliyyət sahəsi deməkdir". "Hər bir şəxsin, fərdi və başqaları ilə birlikdə, insan hüquqları və əsas azadlıqları milli və beynəlxalq səviyyədə təşviq etmək və müdafiə etməyə səy göstərmək hüququ vardır." Adətən, Hüquq Müdafiəçiləri haqqında Bəyannamə kimi istinad edilən, Universal insan hüquqları və əsas azadlıqların təşviqi və müdafiəsi ilə bağlı ayrı-ayrı şəxslərin, qrupların və ictimai orqanların hüquq və öhdəliklərinə dair Bəyannamə: X Azlıqlara və digər risk qruplarına mənsub şəxslərin hüquq və imkanlarının genişləndirilməsi X Ayrı-seçkiliyin hər hansı forması ilə mübarizə X Cinayətlərin qarşısının alınması tədbirlərinə dəstək X Korporativ sosial məsuliyyət və hesabatlılığın təşviq edilməsi X İnsan alverinə qarşı mübarizə X Qadınların hüquq və imkanlarının genişləndirilməsi X Təhrikçi çıxışlara qarşı mübarizə X Gənclərin hüquq və imkanlarının genişləndirilməsi X Sosial ədalətin gücləndirilməsi və istehlakçı hüquqlarının müdafiəsi X Sosial xidmətlərin göstərilməsi VCS-lər bütün səviyyələrdə: yerli, milli, regional və beynəlxalq səviyyələrdə fəaliyyət göstərirlər.

VCS-lər insan hüquqları sahəsində yeni standartların, mexanizmlərin və institutların işlənib-hazırlanmasına və insan hüquqları problemlərinin həllinə istiqamətlənən resursların və ictimai dəstəyin səfərbər edilməsinə dəstək verirlər. BMT-nin İnsan Hüquqları Şurası ifadə azadlığı, birləşmək və dinc toplaşmaq azadlığı, hədə-qorxu və repressiyalar, eləcə də, hüquq müdafiəçiləri ilə bağlı olan və vətəndaş cəmiyyəti üçün xüsusi əhəmiyyət kəsb edən bir neçə qətnamə qəbul etmişdir. 2013 və 2014-cü illərdə, Şura dinc, çiçəklənən və demokratik cəmiyyətlərin qurulması üçün, zəruri olan bütün səviyyələrdə şəffaflıq və hesabatlılıq da daxil olmaqla, dövlət idarəçiliyi prosesləri və müvafiq dövlət idarəçiliyinin təşviqi işlərinə vətəndaş cəmiyyətinin bütün səviyyələrdə fəal şəkildə cəlb edilməsinin həlledici əhəmiyyətini" qəbul etməklə, vətəndaş cəmiyyətinin fəaliyyət sahəsi haqqında 27/31 və 24/21 saylı qətnamələr qəbul etmişdir. BMT-nin İnsan Hüquqları Şurası vətəndaş cəmiyyəti ilə bağlı təşəbbüsləri 3. Azad və müstəqil vətəndaş cəmiyyətinin fəaliyyəti üçün şərait 3.1. Əlverişli siyasi və ictimai mühit BMT Baş Katibi Pan Gi Mun, İnsan Hüquqları Şurasının iyirmi beşinci sessiyasının iştirakçılarına video müraciət, mart, 2014-cü il "Azad və müstəqil vətəndaş cəmiyyəti" yerli, milli və qlobal səviyyədə sağlam və məsuliyyətli idarəetmənin əsasını təşkil edir." Dövlətlərin beynəlxalq hüquqi öhdəlikləri onlardan insanların fərdi və ya başqaları ilə birlikdə vətəndaş fəaliyyəti ilə məşğul olmaq imkanlarını və bacarıqlarını fəal şəkildə dəstəkləyən iqtisadi, siyasi, sosial, hüquqi və mədəni şərait yaratmağı tələb edir. Dövlət orqanları və vətəndaş cəmiyyəti strukturları arasında qarşılıqlı münasibətlərin əsasını formalaşdıran insan hüquqlarına riayət etmək prinsipləri aşağıdakılardır: Vətəndaş cəmiyyətinin qiymətləndirildiyi və təşviq edildiyi siyasi və ictimai mühit. Təcrübədə, təsisatlar və vəzifəli dövlət nümayəndələri vətəndaş cəmiyyəti subyektləri ilə müntəzəm qarşılıqlı fəaliyyət şəraitində onlarla hesablaşırlar. İştirak - Vətəndaş cəmiyyətinin ictimai həyatdakı rolu hamı tərəfindən təsdiq edilir və vətəndaş cəmiyyəti subyektləri müstəqil fəaliyyət göstərmək, dövlət orqanlarının mövqelərindən fərqli mövqeləri müdafiə etmək hüququna malikdirlər. X Ayrı-seçkiliyə yol verməmək - Bütün vətəndaş cəmiyyəti subyektləri ictimai həyatda iştirak etməyə dəvət olunur və hər hansı bir ayrı-seçkilik olmadan bu cür iştirak imkanları ilə təmin olunur. X Ləyaqət - Dövlət orqanları və vətəndaş cəmiyyəti insanların həyatını yaxlaşdırmaqla bağlı ümumi məqsədə xidmət edir və bu zaman müxtəlif funksiyaları yerinə yetirirlər. Qarşılıqlı hörmət bu cür qarşılıqlı əlaqələr üçün həlledici əhəmiyyətə malikdir. X Şəffaflıq və hesabatlılıq - İctimaiyyətin maraqlarına xidmət edən fəaliyyətlər dövlət qulluqçularından açıqlıq, məsuliyyət, dəqiqlik, şəffaflıq və hesabatlılıq tələb edir. Onlar, həmçinin, VCS-lərdən bir-birləri və ictimaiyyət qarşısında şəffaflıq və cavabdehlik tələb edir. Qabaqcıl təcrübənin əsasını təşkil edən əsas şərtlər:2 2. BMT-nin hüquq müdafiəçilərinin vəziyyəti üzrə xüsusi məruzəçisinin hesabatı: Hüquq müdafiəçiləri üçün təhlükəsiz və əlverişli şəraitin elementləri, Tunis - Vətəndaş cəmiyyəti insan hüquqlarının və demokratiya üçün prinsipial əhəmiyyət kəsb edən yeni qanun və siyasət prinsiplərinin işlənib-hazırlanmasında iştirak etməklə, yeni Tunisin qurulmasında ən mühüm rol oynamışdır. Vicdan məhbuslarının ümumi amnistiyası barədə fərman və dörd beynəlxalq sazişə (Bütün şəxslərin zorakı itkin düşməkdən mühafizəsinə dair Beynəlxalq Konvensiya, Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakta Fakültativ Protokol, İşgəncələrə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzalara qarşı Konvensiyaya Fakültativ Protokol və Beynəlxalq Cinayət Məhkəməsinin Roma Nizamnaməsi) qoşulmaqla bağlı qanunlar kimi demokratik keçid dövrünün ilk təşəbbüsləri barədə məsələlərdə vətəndaş cəmiyyəti təşkilatları ilə məsləhətləşmələr aparılmışdır. Vətəndaş cəmiyyəti təşkilatları yeni Seçki Məcəlləsini elan etmiş və qeyri-hökumət təşkilatlarının dövlət tərəfindən, eləcə də, xaricdən maliyyələşdirilməsinin mümkünlüyünə dair müddəanı da özündə əks etdirən birləşmək azadlığı haqqında yeni qanunu qəbul etmiş demokratik təsisatların yaradılmasında iştirak etmişlər. Həmin qanunun 2011-ci ilin sentyabr ayında qəbul edilməsindən etibarən, Tunisdə bir neçə min yeni assosiasiya yaradılmışdır. Tunisdə ilk demokratik və şəffaf seçki kimi tarixə düşmüş 2011-ci il seçkilərində vətəndaş cəmiyyətinin rolu prinsipial əhəmiyyət kəsb etmişdir. Həmin vaxt, ilk dəfə olaraq, 10.000-dən artıq vətəndaş cəmiyyəti fəalı beynəlxalq ictimaiyyətin dəstəyi ilə Müəssislər Məclisinə keçirilən seçkilərin monitorinqi məqsədilə səfərbər edilmişdi. Vətəndaş cəmiyyəti, xüsusilə, qadın təşkilatları, qadın və kişilər arasında tam bərabərlik prinsipinin 2014-cü ilin yanvar ayında Müəssislər Məclisinin böyük səs çoxluğu ilə qəbul edilmiş Yeni Konstitusiya mətninə daxil olunmasına dəstək nümayiş etdirmişlər. İnsan Hüquqları Şurasının müzakirə qrupunun vətəndaş cəmiyyətinin fəaliyyət sahəsinin təşviqi və müdafiəsi məsələləri ilə bağlı müzakirəsinin nəticələrinə dair qısa məruzə, A/HRC/27/33. 3.2. Əlverişli hüquqi fəaliyyət sahəsi Qanunvericilik aktları, inzibati qaydalar və təcrübə beynəlxalq standartlara uyğundur və vətəndaş cəmiyyətinin fəaliyyətinə zəmanət verir. Vətəndaş cəmiyyəti subyektlərinin ədalət məhkəməsinə, müstəqil və səmərəli insan hüquqları təsisatlarına və beynəlxalq insan hüquqları mexanizmlərinə çıxışı həmin fəaliyyət sahəsinin ayrılmaz hissəsini təşkil edir.

yönəlmiş fəaliyyətlərlə məşğul olan ictimai qurumlar (məktəblər, universitetlər, elmi-tədqiqat strukturları).

Vətəndaş cəmiyyəti subyektləri problemləri həll etmək və cəmiyyət üçün mühüm əhəmiyyət kəsb edən məsələləri əhatə etmək istiqamətində fəal şəkildə səy göstərirlər: ... Yoxsulluq, korrupsiya və iqtisadi qeyri-bərabərliklə mübarizə; X Silahlı münaqişələr də daxil olmaqla, humanitar böhranlara qarşı reaksiya; X Qanunun aliliyinin və hesabatlılığın təşviqi; X İctimai azadlıqların təşviqi; X Dövlət büdcələrinin şəffaflığının təbliği; X Ətraf mühitin qorunması; X İnkişaf hüququnun həyata keçirilməsi: BMT-nin insan hüquqları Proqramı üzrə iş: Vətəndaş cəmiyyəti üçün soraq kitabçası, OHCHR, 2008, s. vıı. BMT-nin Baş Katibi Pan Gi Munun Vətəndaş Cəmiyyətinə dəstəklə bağlı yüksək səviyyəli tədbirdəki nitqindən, 23 sentyabr, 2013-cü il "Öz xalqını eşitməyən liderlər onun səsini küçələrdən, meydanlardan və ya tez-tez şahidi olduğumuz kimi, döyüş meydanlarından eşitməli olacaqlar. Lakin daha yaxşı yol mövcuddur, daha çox iştirak, daha

**VAHİD ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

səs





## Ağcabədidə "Mən bullinqə qarşıyam" adlı maarifləndirici tədbir keçirilib



***Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyi tərəfindən maliyyələşdirilən, Gənclər üçün Təhsil Mərkəzi və UNİCEF-in birgə icra etdiyi "İnteqrasiya olunmuş sosial xidmətlər modeli" layihəsi çərçivəsində YAP Ağcabədi rayon təşkilatı qadınlar şurası, GTM Qarabağ ofisi və Ağcabədi rayon Polis Şöbəsinin birgə əməkdaşlığı ilə YAP Ağcabədi rayon təşkilatının inzibati binasında "Mən bullinqə qarşıyam" adlı maarifləndirici tədbirlərə start verilib.***

Tədbiri giriş sözü ilə açan YAP Ağcabədi rayon təşkilatı qadınlar şurasının sədri, GTM Qarabağ ofisinin rəhbəri Radə Telmanqızı bildirib ki, son zamanlar dünyanın bütün ölkələrində təhsil müəssisələrində müşahidə olunan ən qabarıq problemlərdən biri təhsilalanların təzyiq və aqressiv davranışların hədəfi olmasıdır: "Onlardan biri son vaxtlar leksikonda yer almış bullinqdir. Bütün uşaqlar gec-tez bullinqlə rastlaşırlar: ya qurban, ya incidilən şəxs və ya şahid kimi, yəni həm onlayn, həm də reallıqda. Bütün bunlar uşağın şəxsiyyətinə dağıdıcı təsir göstərir."

Çıxışlarda vurğulanıb ki, çox zaman uşaqlar arasında baş verən konfliktlər böyüklər tərəfindən biganəliklə qarşılanır. Məktəb rəhbərliyi və ya valideynlər bu kimi konfliktlərin ciddi olmadığını, uşaqların bunları yaşayaraq, böyüdüklərini və problemlərini özləri həll edə bilməyi beləcə öyrəndiklərini düşünərək, müdaxilə etməyin mənasız olduğunu düşünürlər. Eyni zamanda, bildirilib ki, Azərbaycanda bullinq əleyhinə heç bir qanun layihəsi işlənib-hazırlanmayıb. Bullinq hallarının qarşısının alınması üçün bullinqə geniş izah verə biləcək və profilaktika məqsədilə müəyyən proqramların yaradılmasını tələb edəcək qanun layihəsinin hazırlanması və tətbiq edilməsi məktəblərdə bullinqin qarşısının alınmasına ən böyük yardım göstərmiş olardı.

Tədbirdə iştirakçıları maraqlandıran suallar ətrafında geniş diskussiyalar aparılıb. Tədbir çərçivəsində UNİCEF və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən hazırlanmış maarifləndirici materiallar paylanılıb.

***ZÜMRÜD BAYRAMOVA***

### ELAN

**Abdullayeva Lamiyə Rza qızının adına olan Səbail rayonu Nizami küç, ev 58, 14 saylı mənzilin Texniki pasportu itdiyi üçün etibarsız sayılır.**

**X X X**

**Abdullayeva Lamiyə Rza qızının adına olan Səbail rayonu Nizami küç, ev 58, 6 saylı mənzilin Texniki pasportu itdiyi üçün etibarsız sayılır.**

## Qusarda Yeni Azərbaycan Partiyasının yaranmasının 27-ci ildönümü qeyd olunub





Dünən Yeni Azərbaycan Partiyası Qusar rayon təşkilatında partiyanın yaranmasının 27-ci ildönümü münasibətilə tədbir keçirilib. Tədbiri giriş sözü ilə açan YAP Siyasi Şurasının üzvü, Qusar rayon təşkilatının sədri David İbramxəlilov YAP-ın yaranma tarixinə, keçdiyi şərəfli yola nəzər salaraq, əldə etdiyi möhtəşəm nailiyyətlərdən danışıb. YAP-ın yaranma səbəblərinə və həmin dövrün ictimai-siyasi hadisələrinə nəzər yetirən rayon təşkilatının sədri vurğulayıb ki, Azərbaycan 1990-cı illərin əvvəllərində uçurum qarşısında idi. YAP-ın yaradılmasının bir tarixi zərurət kimi meydana çıxdığını deyən D.İbramxəlilov qeyd edib ki, həmin ərəfədə Azərbaycanda xaos hökm sürürdü və dövlət büdcəsi talan olunmuşdu: "Ümumxalq inamına malik olan və ilk növbədə, milli birliyə, vətəndaş həmrəyliyinə əsaslanaraq, ölkəni böhrandan xilas etməyə qadir olan yeni siyasi qüvvəyə ehtiyac duyduğunu söylədi. Çətin, ağır bir zamanda yaradılan YAP Ümummilli Lider Heydər Əliyev ideyalarına əsaslanaraq, ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak edib, dövlətçiliyimizin möhkəmlənməsinə və dinamik inkişafına öz töhfələrini verib. Yeni Azərbaycan Partiyası, iqtidarda olduğu müddətdə, Azərbaycanın siyasi və iqtisadi müstəqilliyi daha da möhkəmlənib və ölkəmizin beynəlxalq aləmdə mövqeyi güclənib".

Tədbirdə çıxış edən YAP Qusar rayon təşkilatının sədr müavini Nadirşah Şirinov, rayon Heydər Əliyev Mərkəzinin direktoru, YAP rayon təşkilatının qadınlar şurasının sədr müavini Neva Abdurahmanova və rayon təşkilatının gənclər birliyinin sədr müavini Ayaz Abdullayev Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısında göstərdiyi əvəzsiz xidmətlərdən bəhs etdilər.

Sonda YAP sıralarına yeni üzv olmuş bir qrup gəncə partiya vəsiqələri təqdim olundu.

***Nəzakət ƏLƏDDİNQIZI***

## Bu il özünüməşğulluq proqramına cəlb edilənlərin sayı 9310-a çatıb

***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti tərəfindən bu il özünüməşğulluq proqramına cəlb edilənlərin sayı 9310-a çatıb. Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, onlardan 7072-si artıq təlim kursunu uğurla başa vurub.***



Təlimlərin yekununda 5512 nəfər işsiz və işaxtarana isə biznes planlarına uyğun mal və materiallar verilib. Həmin şəxslər verilmiş aktivlər hesabına artıq öz kiçik ailə təsərrüfatlarını yaradıblar. Proqrama cəlb olunanların əksəriyyətini əlilliyi olan şəxslər, məcburi köçkünlər, şəhid ailəsi üzvləri, ünvanlı sosial yardımı alan və ya çoxuşaqlı ailələrin üzvləri, gənclər və müharibə veteranları təşkil edir. Bu ilin axırınadək özünüməşğulluq proqramına cəlb edilənlərin sayının 10 minə çatacağı gözlənilir.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**